# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİNİN 2019-CU İL ƏRZİNDƏ XİDMƏTİ FƏALİYYƏTİNİN ÜMUMİ NƏTİCƏLƏRİNƏ DAİR

# HESABATI

## I. ÜMUMİ HİSSƏ

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və onun strukturuna daxil olan gömrük orqanları 2019-cu ildə öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman və Sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, Dövlət Gömrük Komitəsinin 23 yanvar 2017-ci il tarixli 01/002 Kollegiya Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2017-2021-ci illər üzrə inkişafına dair Fəaliyyət Planı"nı və gömrük işini tənzimləyən digər normativ-hüquqi aktları işdə rəhbər tutaraq tərtib olunmuş iş planı əsasında qurmuşdur.

Hesabat dövründə Azərbaycan Respublikası Prezidentinin "Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 4 mart 2016-cı il tarixli 1853 saylı Sərəncamına əsasən normativ hüquqi bazanın təkmilləşdirilməsi, idxal-ixrac əməliyyatlarının rəsmiləşdirilməsinin sadələşdirilməsi, ticarətin asanlaşdırılması, gömrük sərhədindən mal dövriyyəsinin sürətləndirilməsi, infrastrukturun inkişafı, kadr potensialının gücləndirilməsi, çevik idarəetmə sisteminin tətbiqi, vətəndaş məmnunluğunun təmin olunması, şəffaflığın artırılması istiqamətində müvafiq işlər görülmüşdür. Ölkədə sahibkarlığın inkişafında və şəffaf biznes mühitinin formalaşmasında, iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsində gömrük sisteminin rolunun daha da artırılmasının təmin edilməsi davam etdirilmişdir.

Strateji hədəflər olaraq ticarətin asanlaşdırılması konsepsiyası çərçivəsində sadələşdirilmiş proqramların tətbiqi, e-gömrük xidmətlərinin və avtomatlaşdırılmış əməliyyatların genişləndirilməsi, o cümlədən gömrük-biznes əməkdaşlığının mütəmadi qaydada inkişaf etdirilməsi prioritet istiqamətlər kimi müəyyən edilmişdir. Xüsusilə, "Yaşıl Dəhliz" buraxılış sisteminin tətbiqi, "Bir pəncərə" prinsipinin təkmilləşdirilməsi, "Məcburi qərarlar"ın tətbiqi layihəsi, elektron hökumətə inteqrasiya və onlayn xidmətlərin artırılması, tranzit pilot layihələrinin başlanması kimi müasir alətlər gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi prosesinin sadələşdirilməsini təmin etməklə yanaşı məmur-sahibkar təmasının minimuma endirilməsində mühüm töhfə olmuşdur.

İlk növbədə qanunvericilik bazasının təkmilləşdirilməsi prosesinə önəm verərək müvafiq normativ-hüquqi aktların hazırlanması işi davam etdirilmiş və beynəlxalq konvensiyaların müddəaları nəzərə alınmaqla gömrük nəzarəti və rəsmiləşdirilmə prosedurlarının yeni normalara uyğunlaşdırılması, proqressiv gömrük alətlərinin milli səviyyədə istifadə olunan qaydalara transformasiya edilməsi, gömrük işinin həyata keçirilməsi məsələlərini tənzimləyən prosedurların daha da rasionallaşdırılması

məqsədilə bəzi qaydalara əlavələr edilmiş, eləcə də yeni normativ sənədlər hazırlanaraq müvafiq qaydada təsdiq edilmişdir.

## II. GÖMRÜK TARİFLƏRİNİN TƏNZİMLƏNMƏSİ, GÖMRÜK ÖDƏNİŞLƏRİNİN TOPLANILMASI, BÜDCƏ XƏRCLƏRİ VƏ TƏCHİZAT ÜZRƏ GÖRÜLƏN İŞLƏR

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi xidməti fəaliyyətində hüquq mühafizə tədbirlərini həyata keçirməklə yanaşı, fiskal funksiyanın yerinə yetirilməsində mühüm rola və büdcə gəlirlərinin formalaşmasında xüsusi çəkiyə malikdir.

Qeyd edək ki, "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Qanununa əsasən Dövlət Gömrük Komitəsi üçün 3 milyard 702 milyon manat büdcə öhdəliyi müəyyən edilmişdir. Ötən illərdə olduğu kimi, 2019-cu ildə də büdcə daxilolmalarındakı artım tendensiyası qorunub saxlanılmışdır.

Belə ki, 2019-cu il ərzində Dövlət Gömrük Komitəsi üçün nəzərdə tutulan 3 milyard 702 milyon manat büdcə öhdəliyinə qarşı faktiki olaraq 4 milyard 408 milyon 620 min manat olmaqla, proqnoz göstəriciləri ilə müqayisədə 706 milyon 620 min manat artıq gömrük vergi və rüsumları toplanaraq dövlət büdcəsinə köçürülmüş və proqnoza 119,1 faiz əməl olunmuşdur.

2018-ci ilin ilkin proqnoz göstəriciləri ilə müqayisədə 2019-cu ildə faktiki olaraq 1 milyard 978 milyon manat artıq gömrük vergi və rüsumları dövlət büdcəsinə köçürülmüşdür.

2019-cu il ərzində idxal əməliyyatlarının həcmi 13 milyard 668 milyon dollar məbləğində olmaqla ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 milyard 202 milyon dollar və ya 19,2 faiz artmış, ixrac əməliyyatlarının həcmi isə 19 milyard 635 milyon dollar təşkil etmişdir. İxrac əməliyyatlarının həcmi 2018-ci il ilə müqayisədə 146 milyon dollar və ya 0,8 faiz artmışdır.

İdxal mallarının tərkibində əlavə dəyər vergisi üzrə vergitutma bazası 63,89 faiz, azadolmaların xüsusi çəkisi 36,11 faiz, gömrük rüsumları üzrə isə vergitutma bazası 34,97 faiz olmaqla gömrük rüsumu üzrə verilən güzəştlərin xüsusi çəkisi 65,03 faiz təşkil etmişdir.

Bununla yanaşı, Dövlət Gömrük Komitəsinin struktur bölmələri tərəfindən 2019-cu il ərzində sərhəddə "İcazə" blanklarının verilməsinə görə 16 milyon 803 min manat məbləğində dövlət rüsumu toplanaraq dövlət büdcəsinə köçürülmüşdür.

Müəyyən olunmuş risk göstəriciləri əsasında 1375 gömrük bəyannaməsi üzrə riskli əməliyyatlar aşkar olunmuş və nəticədə 11 milyon 576 min 176 manat məbləğin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

Gömrük orqanları tərəfindən toplanan və dövlət büdcəsinə köçürülən gömrük vergi və rüsumları barədə məlumatlar mütəmadi olaraq Komitənin rəsmi internet saytına yerləşdirilmişdir. Dövlət büdcəsinə köçürülmüş vəsaitlər haqqında Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə üzləşmə aktı tərtib edilərək təsdiqlənmiş, həmçinin Dövlət Gömrük Komitəsi üzrə büdcə proqnozunun icrası barədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikasının Milli Məclisinə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Maliyyə Nazirliyinə, Dövlət

Statistika Komitəsinə və Azərbaycan Respublikasının Hesablama Palatasına mütəmadi olaraq məlumatlar verilmişdir.

Hesabat ilində növbəti üç il üçün proqnozlaşdırılan dövlət büdcəsi gəlirlərinin layihəsinin hazırlanması məqsədilə geniş iqtisadi təhlillər aparılmış və müvafiq təkliflər Azərbaycan Respublikasının İqtisadiyyat və Maliyyə Nazirliklərinə təqdim edilmiş, nəticə etibarilə Dövlət Gömrük Komitəsi üçün 2020-ci il üzrə 4 milyard manat həcmində büdcə proqnozu müəyyən edilmişdir.

Ötən dövrlərdə olduğu kimi hesabat dövründə də fiziki və hüquqi şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhəd buraxılış məntəqələrindən valyuta sərvətlərinin keçirilməsinə nəzarət edilmiş, fiziki şəxslər tərəfindən milli və xarici valyutanın Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi ilə bağlı aylıq statistik məlumatlar Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nda dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli 1233 saylı Fərmanının icrasını təmin etmək məqsədilə hüquqi və fiziki şəxslər tərəfindən konsiqnasiya yolu ilə ixrac olunan malların müqabilində vəsaitlərin onların bəyan olunduğu gündən 180 gün ərzində ixracatçıların Azərbaycan Respublikasındakı müvəkkil bankda olan hesablarına köçürülməsinin təmin edilməsi ilə bağlı qanunla nəzərdə tutulmuş müvafiq tədbirlər həyata keçirilmişdir.

Hesabat dövrü ərzində "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa və "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasında, terrorçuluğun maliyyələşdirilməsində, transmilli mütəşəkkil cinayətkarlığı, habelə silahlı separatizmi, ekstremizmi və muzdluluğu dəstəkləməsində, narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirakı ehtimal olunan, maliyyə əməliyyatlarının aparılması zamanı eyniləşdirmə məlumatlarının açıqlanması tələb olunmayan dövlətlərin (ərazilərin) siyahısı"na edilən dəyişikliklər barədə məlumatlar aidiyyəti üzrə gömrük sərhəd buraxılış orqanlarına göndərilmişdir. Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2009-cu il tarixli 767-IIIQ saylı Fərmanı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanununun 8.1-ci maddəsinə əsasən valyuta sərvətlərinin Azərbaycan Respublikasına gətirilməsi və ya Azərbaycan Respublikasından çıxarılması haqqında məlumatlar qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinə göndərilmişdir.

Müvəkkil banklar tərəfindən edilən müraciətlərə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 01 mart 2012-ci il tarixli 48 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması" Qaydasına müvafiq olaraq təqdim olunmuş sənədlər təhlil edilmiş və nəticələr əsasında 13 müvəkkil bank Dövlət Gömrük Komitəsinin reyestrinə daxil edilmişdir.

Hasilatın pay bölgüsü sazişlərinə əsasən idxal, ixrac rüsumları və vergiləri haqqında protokola əsasən neft-qaz əməliyyatları üzrə təsərrüfat subyektlərinə qanunla

nəzərdə tutulmuş qaydada gömrük ödənişlərindən azadolma hüququ verən 123 sertifikat verilmişdir.

Hesabat dövründə Azərbaycan Respublikasında yeni yaradılmış istehsal sahələrinin inkişafı və genişləndirilməsini, son məhsul istehsalının artırılması və xarici bazarlara çıxışa əlverişli şəraitin yaradılmasını, həmçinin daxili bazarın qorunmasını təmin etmək məqsədilə idxal mallarına münasibətdə gömrük-tarif mexanizminin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına əsasən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminə (VAİS) gömrük rüsumları və Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturası üzrə müvafiq əlavə və dəyişikliklər edilmişdir.

Ötən dövrlərdə olduğu kimi, hesabat ilində də 2018-ci ilin illik və 2019-cu ilin rübləri üzrə balans və smeta xərclərinin yerinə yetirilməsi haqqında icmal hesabatlar hazırlanmış və Hesablama Palatası və Maliyyə Nazirliyinə təqdim olunmuş, Komitənin strukturu üzrə debitor və kreditor borcların uçotu aparılmışdır.

2019-cu il ərzində Dövlət Gömrük Komitəsinin maddi texniki bazasının möhkəmləndirilməsi işləri davam etdirilmiş, mütəmadi olaraq yeni avadanlıqların alınması, avadanlıqların balansa götürülməsi, balansdan silinməsi işləri həyata keçirilmiş, tabeli gömrük orqanlarının texniki ləvazimatlar, geyim dəstləri, zəruri avadanlıqlar və inventarlarla təchiz edilməsi təmin olunmuşdur.

Gömrük sərhəd keçid məntəqələrində gömrük nəzarətinin inkişaf etdirilməsi məqsədilə 2019-cu ildə 20 (iyirmi) ədəd - İtaliyanın CEİA şirkətinin istehsalı olan “HİPE Multi Zone” çərçivə tipli metal detektorunun əldə edilməsi məqsədilə müvafiq qaydada qarşı tərəflə müqavilə bağlanılmış və Komitənin strukturuna daxil olan aidiyyəti gömrük idarələri arasında bölgüsü aparılmışdır.

Dövlət Gömrük Komitəsi ilə “Smiths Heimann” şirkəti arasında X-ray avadanlıqlarının əldə edilməsinə dair 2019-cu ildə bağlanmış müqavilə əsasında 1 (bir) ədəd HCVMT (trailer- mobil tipli) (konteynerlərin və yüklərin yoxlanılması üçün), 4 ədəd CIP300 compact (minik maşınlarının yoxlanılması üçün), 1 (bir) ədəd HCVG 6040 (konteynerlərin və yüklərin yoxlanılması üçün) və əl baqajları üzərində yoxlamaların həyata keçirilməsi məqsədilə 2 (iki) ədəd HS 6046si, 2 (iki) ədəd HS 7555si, 2 (iki) ədəd HS 6040-2is, 2 (iki) ədəd HS 7555aX baxış-rentgen texnikaları əldə edilmiş və yaxın müddət ərzində Komitənin strukturuna daxil olan aidiyyəti gömrük idarələri arasında bölgüsü və quraşdırılması işləri planlaşdırılmışdır.

ABŞ-ın Müdafiə Nazirliyi xətti ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin cənub sərhəd gömrük nəzarət məntəqələrinə və “Beynəlxalq Dəniz Ticarət Limanı” gömrük postuna texniki yardımın göstərilməsinə dair layihə çərçivəsində Dövlət Gömrük Komitəsinin “Astara” dəmir yolu gömrük postuna 1 (bir) ədəd “HCVT” (dəmir yolu vaqonların və konteynerlərin yoxlanılması üçün), “Astara” və “Biləsuvar” gömrük postlarına 2 (iki) ədəd “CIP 300” (minik maşınlarının yoxlanılması üçün), 2 (iki) ədəd “Hi Scan 145 180-2IS Pro” (iri qabaritli yükləri üçün baxış-rentgen texnikası), 4 (dörd) ədəd “B-Scan 16 HR-DV” (bodi skan), “Beynəlxalq Dəniz Ticarət Limanı” gömrük postuna 1 (bir) ədəd “HCVM T” (trailer- mobil tipli) (konteynerlərin və yüklərin yoxlanılması üçün), 2 (iki) ədəd Mitsubishi Forklift və 2 (iki) ədəd sürətli qayıqların verilməsi nəzərdə tutulmuşdur.

Bununla yanaşı, ölkənin şimal sərhədlərində müasir tipli rentgen avadanlıq təchizatının artırılması istiqamətində yeni layihənin həyata keçirilməsi məqsədilə ABŞ-ın Müdafiə Nazirliyi ilə danışıqlar aparılmış və yaxın müddət ərzində layihənin təsdiqlənməsi nəzərdə tutulur. Sözügedən layihə çərçivəsində 1 (bir) ədəd HCVG 6040 (konteynerlərin və yüklərin yoxlanılması üçün), 1 (bir) ədəd "CIP 300" (minik maşınlarının yoxlanılması üçün), 1 (bir) ədəd "Hi Scan 100 100T-2IS" (baxış-rentgen texnikası), 5 (beş) ədəd Gemini S1 (narkotik, partlayıcı və kimyəvi maddələrinin təyin edilməsi üçün cihaz) və 3 (üç) ədəd TruNarc (narkotik, partlayıcı və kimyəvi maddələrinin təyin edilməsi üçün cihaz), 3 (üç) ədəd CT-40 (gömrük çamadanı) və 18 (on səkkiz) ədəd minik nəqliyyat vasitəsi əldə edilməsi planlaşdırılmışdır.

Çin Xalq Respublikası tərəfindən Dövlət Gömrük Komitəsinə texniki yardımın göstərilmə imkanlarının mövcudluğunu nəzərə alaraq, qanunsuz malların dövriyyəsinin qarşısını almaq üçün ölkəmizin dəniz limanlarının texniki imkanları artırmaq məqsədilə narkotik və partlayıcı maddələrin qaçaqmalçılığının qarşısının alınması ilə bağlı "Nuctech" şirkətinin istehsal etdiyi 2 (iki) - ədəd NRCT1000 Tomoqraf (Baqajın yoxlanması üçün), 1(bir) - ədəd RF9010 (dəmir yolu yük yoxlama sistemi), 1 (bir) - ədəd RID1000 (çox funksiyalı elektron yoxlama iti) və 1 (bir) - ədəd MB1215HS ( stasionar yük yoxlama sistemi) markalı müasir tipli "X-Ray" avadanlıqlarının əldə edilməsinə dair diplomatik kanallar vasitəsilə Nazirlər Kabinetinə rəsmi olaraq müraciət edilmiş, nəticə olaraq yaxın müddət ərzində layihənin təsdiq edilməsi gözlənilir. Layihənin ümumi dəyəri 15 milyon dollar təşkil edir.

## III. QANUNVERİCİLİYİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ GÖRÜLƏN İŞLƏR

Hesabat ilində Dövlət Gömrük Komitəsi tərəfindən aşağıda qeyd olunan bir sıra qərar, qanun və sərəncam layihələri hazırlanmış və müvafiq qaydada qüvvəyə minmişdir.

- Belə ki, "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 9 yanvar tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük orqanlarının vəzifəli şəxslərinin fasiləsiz xidmət illərinin və bununla əlaqədar onlara verilən əlavələrin hesablanması Qaydası"nda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 fevral 2019-cu il 53 saylı Qərarı;
- "Xidməti silah saxlamaq, gəzdirmək və təyinatı üzrə istifadə etmək hüququ olan Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 may 2019-cu il 675 saylı Fərmanı;
- "İdxal-ixrac əməliyyatları üzrə büdcə gəlirlərini təmin edən qurumların birgə nəzarətinin həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2019-cu il 734 saylı Fərmanı;
- "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 22 oktyabr 2019-cu il tarixli Azərbaycan Respublikasının Qanunu;
- "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr

tarixli 1686-VQD nömrəli Qanununun tətbiqi və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 saylı Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2019-cu il tarixli Fərmanı;

- Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 yanvar tarixli 1205 saylı Fərmanı ilə təsdiq edilmiş “Lisenziyalar və icazələr” portalı haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2019-cu il tarixli Fərmanı.

Hesabat dövründə bir sıra qərar layihələrinə Komitə tərəfindən rəy və təkliflər bildirildikdən sonra müvafiq qaydada qüvvəyə minmişdir.

- Belə ki, Azərbaycan Respublikası Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən avtobuslara aksiz vergisinin tətbiqi ilə əlaqədar “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 fevral 2019-cu il  34 saylı Qərarı;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 yanvar 2019-cu il tarixli 4 və 5 saylı Qərarları;

Qeyd edilənlərlə yanaşı, aşağıdakı qanunvercilik aktları hazırlanmış və baxılmaq üçün aidiyyəti üzrə təqdim olunmuşdur.

- Ticarətin asanlaşdırılmasına əlverişli şəraitin yaradılması üçün malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən sürətli keçidinin təmin edilməsi yolu ilə mal dövriyyəsinin sürətləndirilməsi, xarici ticarət iştirakçıları üçün daha əlverişli şəraitin yaradılması, büdcə yığımlarının artırılması və bu istiqamətdə dövlətin fiskal siyasətini həyata keçirən gömrük və vergi orqanlarının fəaliyyətinin səmərəli şəkildə əlaqələndirilməsi məqsədilə yol vergisinin və icazə blanklarının sərhədlə yanaşı, təyinat gömrük orqanında alınması ilə əlaqədar Gömrük Məcəlləsinin 230.2-ci, 230.4-cü və 244.5-ci maddələri ilə bağlı hazırlanmış Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu layihəsi;
- Azərbaycan Respublikasında müşahidə olunan dinamik sosial-iqtisadi inkişaf, ölkənin ildən-ilə iqtisadi-ticarət əlaqələrinin coğrafiyasının genişlənməsi, idxal-ixrac əməliyyatlarının həcminin artması Azərbaycanın beynəlxalq iqtisadi sistemə inteqrasiyasının güclənməsi inkişaf etmiş ölkələrin gömrük işi sahəsində qabaqcıl təcrübəsi nəzərə alınmaqla yuxarıda sadalanan istiqamətlərdə görülən işlərin davamı olaraq Gömrük Məcəlləsinin daha da

təkmilləşdirilməsi məqsədilə Gömrük Məcəlləsinin 1.057-58-ci, 50.1-ci, 50.5.2, 50.6, 58-ci, 65-ci, 66-cı, 122-ci, 158-ci, 159-cu,24-cü fəslin adında, 66-cı, 160.2-ci, 209.0.2-ci, 322.1.4-cü, 158.2-ci, 65.6-cı, 84.2-ci, 84.3-cü, 91-ci, 92-ci, 93-cü, 128-ci, 145-ci, 149-cu, 155-ci, 159-cu, 160-cı, 165-ci, 195-ci, 204-cü, 219-cu, 288-ci, 290-cı, 292-ci 299-cu maddələri ilə bağlı hazırlanmış "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu layihəsi;

- "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 saylı Sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planı"ndan irəli gələrək Gömrük Məcəlləsinin 174.1-ci maddəsi ilə bağlı hazırlanmış "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu layihəsi;
- İdxal olunan malların elektron formada əvvəlcədən bəyan edilməsi sisteminin tətbiqi, gömrük prosedurlarının sadələşdirilməsi və gömrük rəsmiləşdirilməsi prosesində "Bir pəncərə" sisteminə qoşulan dövlət orqanları arasında sənəd mübadiləsinin təkmilləşdirilməsi, gömrük rəsmiləşdirilməsinin operativliyini və şəffaflığını artırmaq məqsədilə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi və gömrük prosedurları üçün tələb olunan sənədlərin sayının azaldılması məqsədilə "İdxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsinə dair Tədbirlər Planı"ndan irəli gələrək Gömrük Məcəlləsinin 22-ci, 23-cü, 27-ci, 28-ci, 121-ci, 125-ci, 129-cu, 150-ci, 160-cı, 167-ci, 177-ci, 178-ci, 180-ci, 181-ci maddələri ilə bağlı hazırlanmış "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu layihəsi;
- Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə Dövlət Gömrük Komitəsinin səlahiyyətlərinə aid edilmiş hüquqpozma hallarının təhlili, digər dövlətlərin konkret hüquq normaları ilə bağlı təcrübəsinin öyrənilməsi, eləcə də beynəlxalq aləmdə gedən iqtisadi proseslər qüvvədə olan qanunvericilik aktlarının bir sıra normalarının faktiki şəraitlə uyğunluğunun təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 206-cı (qaçaqmalçılıq), 213-1-ci (aksiz markası ilə markalanmalı olan məhsulları (malları) belə marka olmadan satma, satış məqsədilə saxlama, istehsal binasının hüdudlarından kənara çıxarma və ya idxal etmə, belə məhsulların (malların) nağd qaydada alqı-satqısı) maddələrində dəyişiklik edilməsi məqsədilə hazırlanmış "Azərbaycan Respublikasının Cinayət və İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu layihəsi;
- Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nda dəyişikliklər edilməsi və idxal-ixrac əməliyyatlarının tənzimlənmə mexanizminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi;

- (İdxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsinə dair Tədbirlər Planı”ndan irəli gələrək 2.5-ci, 2.6-cı, 2.9-cu, 15.5-ci, 16.3-cü, 16.4-cü, 16.5-ci, 10-cu hissəsi ilə bağlı “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 saylı qərarı ilə təsdiq edilmiş “Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları”nda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı” layihəsi;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 dekabr tarixli 219 saylı qərarı ilə təsdiq edilmiş “Vergi ödəyicisinə verilmiş elektron vergi hesab-fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydaları”nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı” layihəsi;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 oktyabr 2013-cü il tarixli 305 saylı Qərarı ilə təsdiq edilmiş “Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları”nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı layihəsi;
- “ASAN xidmət” mərkəzlərində gömrük orqanları tərəfindən göstərilən elektron xidmətlərin əhatə dairəsini əhalinin tələbatını nəzərə alaraq genişləndirilməsini, zəruri gömrük əməliyyatlarının yerinə yetirilməsi ilə bağlı “ASAN xidmət” mərkəzlərində xidmətlərin daha çevik, faydalı və səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə hazırlanmış “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 saylı Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi;
- “Ticarət Gəmiçiliyi Məcəlləsi haqqında”, “Avtomobil nəqliyyatı haqqında” və “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Qanunu layihələri;
- Xarici ticarət iştirakçıları tərəfindən ölkəyə əlavə dəyər vergisindən azad olunmaqla malların (lizinq müqaviləsinin obyekti olan əsas vəsaitlərin) idxalı zamanı sui-istifadə hallarının qarşısının alınması, xarici ticarət iştirakçıları üçün daha əlverişli şəraitin yaradılması, rəqabət mühitin şəffaflaşdırılması və bu istiqamətdə dövlət büdcəsinə ödənilməli olan gömrük ödənişlərinin həcminin artırılması eyni zamanda malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən sürətli keçidinin təmin edilməsi, insan sağlamlığının qorunması, ətraf mühitin və ekologiyanın çirklənməsinin, həmçinin ölkə ərazisində qeyri-qanuni taksi və digər sərnişindaşıma xidməti göstərilməsinin qarşısının alınması məqsədilə hazırlanmış “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu” layihəsi;

- Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 622 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi;
- Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ saylı Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Qanun layihəsi və əlavə layihə olaraq qeyd olunan qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 243 saylı Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi;
- Gömrük sərhəd buraxılış məntəqələrində qanunvericiliyin tələblərinə ciddi riayət olunaraq daha səmərəli və sürətli keçidin təmin edilməsi məqsədilə hazırlanmış Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 oktyabr 2013-cü il tarixli 305 saylı qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı layihəsi;
- "İnzibati xəta haqqında protokol, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərar (qərardad) blanklarının aidiyyəti orqanlarının sifarişi əsasında hazırlanması, saxlanılması uçotu və təqdim edilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 iyul tarixli 305 saylı qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərar layihəsi;
- Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 960-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların Siyahıları"nda dəyişikliklər edilməsi haqqında qanun layihəsi;
- Yüklərin və sərnişinlərin daşımalarında iştirak edən avtonəqliyyat vasitələri ilə Azərbaycan Respublikasının ərazisindən ucuz benzin və dizel yanacağının kütləvi şəkildə çıxarılması hallarının qarşısının alınması məqsədilə hazırlanmış "Azərbaycan Respublikasının ərazisini tərk edən avtonəqliyyat vasitələrində daşınan yanacağın miqdarının tənzimlənməsi" haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 3 avqust tarixli 339 saylı Qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı layihəsi;
- Malların gömrük sərhədindən sürətli keçidinin təmin edilməsi üçün məlumatların gömrük orqanlarına öncədən ötürülməsi yolu ilə sərhədkeçmə prosedurlarının sadələşdirilməsi və ticarətin asanlaşdırılması, səmərəli risk idarəçiliyi əsasında düzgün gömrük nəzarətinin təşkili və gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsi və qanunvericiliyin təkmilləşdirilməsi

məqsədilə əsas layihə olaraq “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli 284 saylı Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 2018-ci il 18 dekabr tarixli 407 saylı Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Fərmanı layihəsi və əlavə layihə olaraq “Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikasının ərazisini tərk edəcək hava gəmisinin sərnişinləri və ekipajı barədə məlumatların daşıyıcılar tərəfindən verilməsi, habelə həmin məlumatların qəbul edilməsi, saxlanması və digər dövlət orqanları (qurumları) ilə mübadilə edilməsi Qaydası”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 29 iyun 2019-cu il tarixli 330 saylı Qərarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı layihəsi;

- Aidiyyəti dövlət qurumlarının rəy və təklifləri əsasında “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli 284 saylı Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 407 saylı Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi və “Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikasının ərazisini tərk edəcək hava gəmisinin sərnişinləri və ekipajı barədə məlumatların daşıyıcılar tərəfindən verilməsi, habelə həmin məlumatların qəbul edilməsi, saxlanması və digər dövlət orqanları (qurumları) ilə mübadilə edilməsi Qaydası”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 29 iyun 2019-cu il tarixli 330 saylı Qərarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı layihəsi.

Eyni zamanda, beynəlxalq təcrübə nəzərə alınaraq, ticarətin asanlaşdırılması və səmərəli risk idarəçiliyi əsasında düzgün gömrük nəzarətinin təşkili məqsədilə daşıyıcılar tərəfindən gömrük ərazisinə daxil olması və ya tərk etməsi nəzərdə tutulan nəqliyyat vasitələri və yüklər barədə məlumatların öncədən müəyyən edilmiş müddət çərçivəsində gömrük orqanlarına elektron qaydada ötürülməsinin təmin olunması üçün “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə”, “Ticarət Gəmiçiliyi Məcəlləsi” haqqında və “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanun layihələri aidiyyəti dövlət qurumları ilə razılaşdırılma mərhələsindədir.

Yuxarıda qeyd olunan qanunvercilik aktları ilə yanaşı gömrük işini nizama salan və tənzimləyən Komitə daxili Sərəncamlar və Kollegiya Qərarları hazırlanaraq təsdiq edilmişdir.

## IV. GÖMRÜK NƏZARƏTİNİN TƏŞKİLİ VƏ TİCARƏTİN ASANLAŞDIRILMASI İSTİQAMƏTİNDƏ GÖRÜLƏN İŞLƏR

2019-cu ildə tətbiqinə başlanılmış Azərbaycan Respublikası Prezidentinin 21 dekabr 2018-ci il tarixli 427 saylı Fərmanı ilə təsdiq edilmiş “Xarici ticarət iştirakçılarının “Yaşıl Dəhliz” buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn

dayandırılması, ləğvi və bərpası Qaydası" Ümumdünya Gömrük Təşkilatının tövsiyələrinə və öncül beynəlxalq təcrübəyə əsaslanaraq gömrük xidmətinin təkmilləşdirilməsi və ticarətin asanlaşdırılması istiqamətində atılmış ən mühüm addımlardan biri olmaqla xarici iqtisadi fəaliyyət sahəsində etibarlı tərəfdaş prinsipinə uyğun olaraq həyata keçirilir.

"Xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli 427 saylı Fərmanının icrasından irəli gələn məsələlərlə bağlı bir sıra mühüm işlər görülmüşdür.

Belə ki, xarici ticarət iştirakçılarına "Yaşıl dəhliz" buraxılış sisteminə qoşulmaq üçün öz şəxsi kabinetlərindən Komitəyə müraciət imkanı yaradılmış və daxil olan müraciətlərə Dövlət Gömrük Komitəsinin struktur bölmələri tərəfindən baxılma mexanizmi işlənib hazırlanmışdır.

Eyni zamanda, Dövlət Gömrük Komitəsinin 25 fevral 2019-cu il tarixli 1000/055 saylı Sərəncamına müvafiq olaraq "Yaşıl Dəhliz" buraxılış sistemindən daimi istifadə hüququ əldə etmiş xarici ticarət iştirakçıları tərəfindən həyata keçiriləcək idxal-ixrac əməliyyatları zamanı yarana biləcək çətinliklərin operativ qaydada aradan qaldırılması ilə bağlı yaradılmış "Dəstək qrupu" tərəfindən 7/24 formatında xarici ticarət iştirakçılarına praktiki köməklik göstərilmiş, onlar tərəfindən bildirilən problemlərin operativ qaydada həllinin təmin edilməsi məqsədilə Komitənin aidiyyəti struktur bölmələri ilə birgə işlər aparılmışdır.

Məlum Fərmanın icrasına başlanılmış və müvafiq olaraq 599 xarici ticarət iştirakçısı Komitəyə müraciət etmişdir. Bunlardan 307 idxal və 198 ixrac olmaqla, ümumilikdə 505 xarici ticarət iştirakçısına Yaşıl Dəhliz Buraxılış sistemindən daimi istifadə hüququ verilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 sentyabr 2012-ci il tarixli 207 saylı Qərarı ilə təsdiq "Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatının verilməsi, fəaliyyətinin dayandırılması və ləğv edilməsi Qaydaları"nın 2 və 3-cü bəndlərinə müvafiq qaydada gömrük təmsilçiliyi institutunun formalaşdırılması və təkmilləşdirilməsi, bu sahədə fəaliyyət göstərən şəxslərin bilik və bacarıqlarının artırılması, fəaliyyətin mövcud qanunvericiliyə və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə Dövlət Gömrük Komitəsi tərəfindən avqust ayından etibarən mərhələli qaydada 14 dəfə imtahan keçirilmişdir.

Həmçinin, ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin yüksəldilməsinin təmin edilməsi istiqamətində Dövlət Gömrük Komitəsi "Doing Business" hesabatının "Sərhəddə ticarət" indikatoru üzrə işçi qrupuna rəhbərlik edir və hal-hazırda işçi qrupunda həm dövlət, həm özəl sektorun nümayəndələrinin iştirakı ilə üzvlərin sayı 13 nəfərə çatdırılmışdır. Əlavə olaraq, Dövlət Gömrük Komitəsində bu istiqamətdə xüsusi yaradılmış işçi qrup fəaliyyət göstərməkdədir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" ilə regionda əhəmiyyətli logistika və ticarət qovşağına çevrilmək məqsədilə ölkənin strateji coğrafi mövqeyindən səmərəli istifadə edilməklə, tranzit yüklərin ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinə cəlb olunması, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində Azərbaycanın rəqabətqabiliyyətliliyini təmin etmək üçün idxal-ixrac

əməliyyatlarına və tranzit yüklərin daşınmasına sərf olunan vaxt və xərclərin optimallaşdırılması, sərhəd keçid prosedurlarının sadələşdirilməsi kimi strateji məqsədlər, Azərbaycan üzərindən ticarət həcminin artırılması üçün əlverişli mühitin yaradılması və tranzit ticarətindən daha yüksək dəyərin əldə edilməsi kimi strateji hədəflərə nail olunması məqsədilə Dövlət Gömrük Komitəsinin Kollegiyasının 30.01.2019-cu il tarixli 1000/01/002 saylı qərarı ilə "Azərbaycan Respublikasında Tranzit Əməliyyatlarının Gömrük Tənzimlənməsinin İnkişafı Konsepsiyası" təsdiq edilmişdir.

Konsepsiya ilə təsdiq edilmiş Tədbirlər planının 3.1-ci bəndinin icrası çərçivəsində "BYD kitabçasından istifadə etməklə həyata keçirilən beynəlxalq yük daşımaları zamanı məlumatların ilkin mübadiləsi sisteminin pilot qaydada Dövlət Gömrük Komitəsi sistemində tətbiqi haqqında" Dövlət Gömrük Komitəsinin sərəncamına uyğun olaraq, TIR EPD sistemi 10 dekabr 2018-ci il tarixindən 10 yanvar 2019-cu il tarixinədək pilot qaydada tətbiq olunmuş, 1 fevral tarixindən etibarən tam şəkildə istifadə edilməyə başlanmışdır. Sözügedən sistem vasitəsilə indiyədək 25000-dən artıq daşıma məlumatı gömrük orqanlarına təqdim olunmuşdur.

Qeyd olunan Tədbirlər planının 3.2-ci bəndinin icrası çərçivəsində "eTIR pilot layihələrin həyata keçirilməsi" ilə bağlı "BYD kitabçasından istifadə etməklə həyata keçirilən beynəlxalq daşımalar zamanı "eTIR" layihəsinin pilot qaydada Dövlət Gömrük Komitəsi sistemində tətbiqi haqqında" Dövlət Gömrük Komitəsinin sərəncamına uyğun olaraq, Azərbaycan və İran arasında eTIR pilot layihəsinin tətbiqinə başlanılmışdır. Ümumilikdə, pilot layihə çərçivəsində 9 daşıma həyata keçirilmiş və hazırda daşımalar davam etdirilməkdədir.

Avropanın Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə (NCTS) qoşulmaya hazırlıq çərçivəsində işlər davam etdirilmişdir. "Azərbaycan Respublikasında Tranzit Əməliyyatlarının Gömrük Tənzimlənməsinin İnkişafı Konsepsiyası"nın Tədbirlər planının 1.1-ci bəndinin icrası çərçivəsində gömrük risklərinin təhlili sistemindən istifadə və gömrük nəzarətinin nəticələrinin qarşılıqlı tanınması prinsipinin səmərəli şəkildə tətbiqi vasitəsilə beynəlxalq daşımalarda təhlükəsizliyin təmin edilməsi və sərhəd keçidinin sürətləndirilməsi məqsədilə Dövlət Gömrük Komitəsinin "Malların gömrük möhürləri və plombları altında təhlükəsiz nəqliyyat vasitələri və konteynerlərdə daşınmasının təmin edilməsinə dair tədbirlər haqqında" Dövlət Gömrük Komitəsinin 10.07.2019-cu il tarixli 1000/197 saylı Sərəncamı qüvvəyə minmişdir. Göstərilənlərlə yanaşı, gömrük nəzarətinin optimallaşdırılması və ticarətin asanlaşdırılmasına yönəlmiş xidmətlərin reallaşdırılması məqsədilə müəyyən edilmiş hədəf planlar üzrə işlər həyata keçirilməkdədir.

Malların idxalı, ixracı və tranzit daşınması zamanı ticarət prosedurlarının asanlaşdırılması məsələlərinin koordinasiyası işinin təşkili və təkmilləşdirilməsi, gömrük-sərhəd prosedurlarının və sənədləşmənin unifikasiyası, eyni zamanda qurumlararası inteqrasiya prosesinin və əməkdaşlığın inkişafı, dövlət və özəl sektor arasında müntəzəm dialoqun təşkili, beynəlxalq təşkilatların tövsiyələrinin və inkişaf etmiş dövlətlərdə tətbiq edilən ən yaxşı təcrübələrin Azərbaycanda gömrük işinin tənzimlənməsinə inteqrasiya edilməsi, o cümlədən ölkənin qlobal ticarətdə reytinqinin (Doing Business, Qlobal Rəqabətlilik və s.) daha da yüksəldilməsi məqsədilə Ticarətin Asanlaşdırılması üzrə Milli Komitənin təsis edilməsi layihəsi hazırlanaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilmişdir.

## V. GÖMRÜK İŞİ SAHƏSİNDƏ HÜQUQPOZMALARA QARŞI MÜBARİZƏ İLƏ ƏLAQƏDAR GÖRÜLƏN İŞLƏR

2019-cu il ərzində Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən əməliyyat-axtarış fəaliyyətinin və gömrük nəzarətinin gücləndirilməsi istiqamətində həyata keçirilmiş kompleks tədbirlər nəticəsində 13 443 hüquqpozma faktı aşkar edilmişdir.

Bu faktlardan 866-sı cinayət xarakterli faktlar olmuş və həmin faktlar üzrə tutulmuş qaçaqmalçılıq əşyalarının və digər cinayət predmetlərinin dəyəri 11 milyon 273 min manatdan çox təşkil etmişdir. Bu əməllərin törədilməsində şübhəli bilinən 992 nəfərin (771 Azərbaycan vətəndaşı, 220 əcnəbi, 1 vətəndaşlığı olmayan) barəsində müvafiq tədbirlər görülmüşdür.

Cinayət faktlarından 405-i Cənub Ərazi BGİ, 169-u Qərb Ərazi BGİ, 155-i HNBGİ, 48-i Şimal Ərazi BGİ, 43-ü Bakı BGİ, 23-ü DGK-nın Əməliyyat-İstintaq Baş İdarəsi, 10-u Enerji resursları və Dəniz Nəqliyyatında BGİ, 9-u Sumqayıt BGİ, 2-si Aksizli Mallar üzrə BGİ, 2-si NDGK tərəfindən aşkar olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli 1334 saylı Sərəncamı ilə təsdiq edilmiş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nın icrasını təmin etmək və gömrük sərhədindən narkotiklərin qanunsuz keçirilməsinin qarşısını almaq məqsədilə gömrük orqanları tərəfindən (o cümlədən digər hüquq mühafizə orqanları ilə birlikdə) görülmüş qətiyyətli tədbirlər nəticəsində 2019-cu il ərzində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə əlaqədar 393 fakt aşkar olunmuşdur.

Bu faktlar üzrə, ümumilikdə 1 ton 988 kq 628 qram narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları qanunsuz dövriyyədən götürülmüşdür. Onların 95,3%-ni daha təhlükəli ağır narkotiklər olan heroin və metamfetamin təşkil etmiş, müvafiq olaraq 1 ton 821 kq 728 qram heroin, 74 kq 246 qram metamfetamin tutulmuşdur. Bundan əlavə, 63 kq 559 qram tiryək, 11 kq 501 qram həşiş, 4 kq 009 qram kokain, 322,947 qram marixuana, 633,676 qram metadon, 18,5 qram diazepam, 93 qram fenobarbital, 12 kq 045 qram kalium permanqanat və digər maddələr qanunsuz dövriyyədən çıxarılmışdır.

2019-cu il ərzində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən 490 nəfər: 416 kişi və 74 qadın olmaqla 367 nəfər Azərbaycan vətəndaşı, 122 nəfər əcnəbi (91 İran, 16 Gürcüstan, 5 Rusiya, 3 Ukrayna, 3 Pakistan, 2 Türkiyə, 1 Boliviya və 1 Braziliya vətəndaşı) və 1 vətəndaşlığı olmayan şəxs barəsində müvafiq tədbirlər görülmüş, 79 halda, bu əməlləri törədən cinayətkar dəstə ifşa edilmişdir.

Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları 320 halda İrandan, 20 halda Gürcüstandan, 13 halda Rusiyadan, 3 halda ABŞ-dan, 1 halda Qətərdən, 1 halda Birləşmiş Ərəb Əmirliklərindən Azərbaycana gətirilərkən, 4 halda Avstraliyaya, 2 halda Gürcüstana, 1 halda Amerika Birləşmiş Ştatlarına, 1 halda İran İslam Respublikasına, 1 halda Rusiyaya, 1 halda Birləşmiş Ərəb Əmirliklərinə aparılarkən, 8 halda isə tranzit yolla (3 halda İran-Azərbaycan-Gürcüstan, 2 halda İran-Azərbaycan-Ukrayna, 1 halda İran-Azərbaycan-İsveç, 1 halda İran-Azərbaycan-Rusiya və 1 halda Gürcüstan-Azərbaycan-İran) keçirilərkən saxlanmışdır.

Narkotiklərin qanunsuz keçirilməsi məqsədilə narkoqaçaqmalçılar müxtəlif gizlətmə üsullarından istifadə etmişlər. 2019-cu il ərzində 116 halda, narkotik vasitələrin daxili bədən boşluqlarında (mədədə, düz bağırsaqda, cinsiyyət orqanında və s.) keçirilməsinə cəhdin qarşısı alınmışdır.

Hesabat dövründə, həmçinin gömrük orqanlarının əməkdaşları tərəfindən 46 fakt üzrə, ümumilikdə 1 kq 545 qram güclü təsiredici maddələr, o cümlədən 246 qram danazol, 7,11 qram androstanolon, 180,04 qram boldenon, 50 qram drostanolon, 138,25 qram nandrolon, 50,1 qram oksimetolon, 60 qram oxsandrolone, 478,95 qram preqabalin, 6,75 qram sibutramin, 261,71 qram tramadol, 52 qram trenbolon, 14,225 qram tropikamid qanunsuz dövriyyədən çıxarılmışdır.

2019-cu il ərzində Dövlət Gömrük Komitəsi tərəfindən istintaq orqanının barələrində axtarış elan etdiyi 13 nəfər şəxslə bağlı zəruri əməliyyat-axtarış tədbirləri həyata keçirilərək onların yeri müəyyən edilmiş və istintaq orqanının sərəncamına verilməsi səbəbindən 13 axtarış işinə xitam verilmişdir. Həmçinin, barələrində məcburi gətirilmə tətbiq olunan şəxslərin və əməliyyat tapşırıqlarının icrası ilə əlaqədar istintaq orqanının çağırışına məhəl qoymayan 23 nəfərin gətirilməsi təmin edilmişdir.

Hesabat dövründə Dövlət Gömrük Komitəsi tərəfindən icraatda olan materiallar üzrə 542 cinayət işi başlanmış, 68 material üzrə cinayət işinin başlanılması rədd edilmiş, 13 material aidiyyəti üzrə verilməsindən ötrü Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilmiş, 4 material icraatda olan cinayət işlərinə və ya materiallara əlavə edilmiş, 2 material göndərən orqana geri qaytarılmış, 10 material növbəti ilə qalıq qalmışdır.

2019-cu il ərzində Dövlət Gömrük Komitəsinin icraatında ötən ildən qalmış 217, il ərzində başlanmış 542, digər işlərdən ayrılmış 89, icraatı təzələnmiş 44, digər orqanlardan daxil olmuş, eləcə də məhkəmə və prokurorluq orqanlarından əlavə istintaqa qaytarılmış 41 cinayət olmaqla, cəmi 933 cinayət işi olmuşdur.

2019-cu ilin yanvar-dekabr aylarında başlanmış cinayət işlərinin 44,3 faizi (240 cinayət işi) ağır, 53,5 faizi (290 cinayət işi) az ağır, 2,2 faizi (12 cinayət işi) böyük ictimai təhlükə törətməyən cinayətlər kateqoriyasına aid olmuşdur.

2019-cu ilin yanvar-dekabr ayları ərzində Dövlət Gömrük Komitəsinin icraatında olmuş 933 cinayət işindən 409 cinayət işi (20 iş təkrarla) baxılması üçün ittiham aktları ilə məhkəmələrə göndərilmiş, 163 cinayət işinin icraatı dayandırılmış, 55 cinayət işinin icraatına xitam verilmiş, 35 cinayət işi icraatda olan digər cinayət işlərinə birləşdirilmiş, 173 cinayət işi istintaq aidiyyəti üzrə digər orqanlara göndərilmiş, 98 cinayət işi hesabat dövrünün sonuna icraatda qalmışdır.

Hesabat dövründə 150 cinayət işi təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin müəyyən edilməməsi, 3 cinayət işi təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin olduğu yer müəyyən olunmaması, 8 cinayət işi təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin istintaqdan gizlənməsi, 3 cinayət işinin icraatı isə digər əsaslara görə dayandırılmışdır.

2019-cı ildə istintaqı tamamlanmış cinayət işləri üzrə 459 nəfər təqsirləndirilən şəxs qismində cəlb edilmiş, təqsirləndirilən şəxslərdən 343 nəfəri barəsində məhkəmə tərəfindən həbs qətimkan və ya ona alternativ qətimkan tədbiri, qalan 116 nəfəri barəsində isə istintaq orqanı tərəfindən həbslə bağlı olmayan digər qətimkan tədbirləri seçilmişdir.

Hesabat dövrü ərzində Dövlət Gömrük Komitəsi tərəfindən dövründə cinayət işləri və materiallar üzrə vurulmuş cəmi 1 205 884 manat məbləğində ziyanın tam həcmdə ödənilməsi təmin edilmişdir.

Hesabat dövründə icraatda olan cinayət işləri üzrə 361 şəxs Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 148-ci maddəsinə əsasən tutulmuş, bunlardan 343-ü barəsində məhkəmə tərəfindən həbs qətimkan tədbiri seçilmiş, qalan 18-i isə istintaq orqanı tərəfindən müxtəlif əsaslarla azad edilmişdir.

2019-cu il ərzində Azərbaycan Respublikası gömrük orqanları tərəfindən aşkar olunmuş 12577 gömrük qaydaları əleyhinə inzibati xəta faktları üzrə 2154 hüquqi şəxs (o cümlədən 1010 xarici hüquqi şəxs) və 10440 fiziki şəxs (o cümlədən 3921 xarici vətəndaş) inzibati məsuliyyətə cəlb edilmiş, göstərilən şəxslərə qarşı 1 milyon 358 min 741 manat cərimə tətbiq olunmaqla, dəyəri 470 min 519 manat olan mallar məhkəmə orqanları tərəfindən müsadirə edilmişdir.

Gömrük qaydaları əleyhinə inzibati xətalar əsasən malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən gömrük nəzarətindən gizlədilməklə keçirilməsi, bəyan edilməməsi və ya düzgün bəyan edilməməsi, malların, nəqliyyat vasitələrinin və ya onlara aid sənədlərin müəyyən edilmiş müddətdə təyinat gömrük orqanına çatdırılmaması, onların gömrük ərazisindən müəyyən edilmiş müddətdə kənara aparılmaması, yaxud həmin əraziyə qaytarılmaması, qısa idxal bəyannaməsinin mallar gömrük ərazisinə gətirilməzdən əvvəl elektron formada verilməməsi, gömrük ödənişlərinin (borcunun) ödənilməsindən yayınma ilə əlaqədar olmuşdur.

“Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununa və digər qanunvericilik aktlarına əsasən gömrük orqanları valyuta və valyuta sərvətlərinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi üzərində nəzarəti həyata keçirərkən qanunvericiliyin tələblərini pozan şəxslərdən 310 330 ABŞ dolları, 13 585 avro, 6 531 350 rus rublu, 35 000 türk lirəsi, 25 400 Azərbaycan manatı, 11 627 manat dəyərində 730 ədəd gümüş zinət əşyaları, 56 008 manat dəyərində 284,614 karat qiymətli daşlar, 1 293 908 manat dəyərində 1803 ədəd qızıl zinət əşyaları aşkar olunmuşdur.

Bununla yanaşı, hesabat dövründə gömrük orqanları tərəfindən 239 569 manat dəyərində 239 569 ədəd CİTES obyekti olan tibb zəlisi, 1 782 462 manat dəyərində 2 970 770 litr dizel yanacağı, 3 milyon 140 min 993 manat dəyərində dərman vasitələri, 2679 manat dəyərində baytarlıq dərmanları, 32 200 manat dəyərində 1800 ədəd təhlükəsizlik kameraları, 2 ədəd elektroşoker, 18 ton 202 kq kimyəvi maddə, 24 kq 370 qram kürü, 84 575 manat dəyərində 7525 litr mühərrik yağı, 821 223 manat dəyərində 1152 ədəd mobil telefon və 74 725 manat dəyərində 43 078 ədəd mobil telefonların aksesuarları, 121 080 manat dəyərində məişət texnikası və əşyaları, 113 ədəd odlu silahın patronları, 5760 ədəd ov silahının sursat və ləvazimatları, 1 559 130 ədəd pirotexniki məmulatlar, 3 ədəd pnevmatik silah, 11 500 ədəd pnevmatik silahın patronları, 164 ədəd soyuq silah, 30 766 manat dəyərində tibb ləvazimatları və xeyli miqdarda digər mallar tutulmuşdur.

Hesabat dövründə, həmçinin Azərbaycan Respublikasının və xarici ölkələrin bədii, tarixi və arxeoloji sərvətlərin qorunması sahəsində tarixi əhəmiyyət kəsb edən 12 ədəd sikkə, 3 ədəd XVIII-XIX əsrlərə aid qaşıq və 7 ədəd atəşə yararsız qədimi odlu silah hüquqpozmanın predmeti kimi saxlanılmışdır.

2019-cu il ərzində kontrafakt, keyfiyyətsiz və ya istifadəyə yararsız mallarla mübarizə sahəsində də proflaktik tədbirlər gücləndirilmişdir. Belə ki, gömrük orqanları

tərəfindən kontrafakt, keyfiyyətsiz və ya istifadəyə yararsız mallarla mübarizə sahəsində istifadəyə yararsız hesab olunmuş 404 ədəd "Gradia Direct" markalı diş üçün dolğu, 3 ədəd giliz, 1 ədəd güllə, 100 həb "Феназепам 0,5мг" adlı dərman preparatları, 10 720 ədəd müxtəlif markalı siqaretlər, 180 qutu tütün və kontrafakt hesab olunmuş 8 ədəd üzərində Samsung S9+ yazısı olan mobil telefonlar aşkar edilərək hüquqpozmanın predmeti kimi götürülmüş və toplanmış materiallar qanunvericiliyə uyğun qaydada tədbir görulməsindən ötrü məhkəməyə göndərilmişdir.

Hesabat dövründə gömrük orqanları tərəfindən alkoqollu içkilərin, etil (yeyinti) spirtinin və tütün məmulatlarının idxalı zamanı vergidən yayınma və aksiz markalarının tətbiqi qaydalarının pozulması hallarının qarşısının alınması üçün həyata keçirilmiş qətiyyətli tədbirlər nəticəsində aksiz markasız və ya digər qanunsuz yollarla ölkəyə gətirilməsinə cəhd göstərilən 282 796,2 manat dəyərində 2 005 144 ədəd xaricdə istehsal olunan siqaretlər, 1469,5 manat dəyərində 1305 ədəd siqarlar, 130 980 manat dəyərində 80 894,7 litr spirtli içkilər saxlanılmışdır.

Müasir dövrdə gömrük hüquqpozmalarının hazırlanması və törədilməsi 2 və daha artıq dövlətin ərazisində baş verdiyi səbəbindən həmin hüquqpozmalarla səmərəli mübarizənin beynəlxalq əməkdaşlıq olmadan həyata keçirilməsi qeyri-mümkündür. Bu baxımdan hesabat dövründə qeyd olunan səbəblərdən Dövlət Gömrük Komitəsi beynəlxalq əməkdaşlığa xüsusi önəm vermişdir.

2019-cu il ərzində hüquq mühafizə fəaliyyəti üzrə beynəlxalq əməkdaşlığın həyata keçirilməsi ilə bağlı bir sıra tədbirlər görülmüşdür. Belə ki, əməliyyat, təhqiqat və istintaq, eləcə də gömrük orqanlarının hüquq mühafizə fəaliyyətinin digər istiqamətlərini əhatə edən xarici ölkələrin və beynəlxalq təşkilatların 88 sorğusu icra olunmuş və bu sahə üzrə qarşı tərəfə 128 analoji və digər sorğular göndərilərək müvafiq cavablar alınmışdır.

Hüquq mühafizə fəaliyyəti üzrə beynəlxalq əməkdaşlığın həyata keçirilməsi ilə bağlı görülmüş tədbirlər nəticəsində əldə olunmuş əməliyyat məlumatları Dövlət Gömrük Komitəsinin əməkdaşları tərəfindən realizə olunaraq bir sıra uğurlu nəticələr əldə olunmuşdur. Belə ki, 2019-cu il ərzində Amerika Birləşmiş Ştatları Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə İdarəsi əməkdaşları ilə Bakı şəhərində mütəmadi görüşlər keçirilərək məlumat və təcrübə mübadiləsi aparılmış və bunun nəticəsi olaraq hava nəqliyyatı ilə daşınmasına cəhd göstərilən 2 halda, ümumilikdə 4 kq-dan çox narkotik vasitə olan kokain Heydər Əliyev Beynəlxalq Hava Limanında Boliviya və Braziliya vətəndaşlarının baqajlarındakı gizli saxlanc yerlərində aşkarlanaraq götürülmüşdür.

Həmçinin, 2019-cu ilin dekabr ayında əldə olunmuş əməliyyat məlumatı əsasında 420 min avro dəyərində zinət əşyasının Azərbaycan Respublikasının gömrük ərazisinə gömrük ödənişlərindən yayınmaqla gətirilməsinin qarşısı alınmış və qeyd olunan zinət əşyasına görə 286 min 772 manat məbləğində gömrük ödənişlərinin ödənilməsi təmin edilmişdir.

Gömrük əməkdaşları hüquq mühafizə sahəsi üzrə 22 beynəlxalq tədbirdə, həmçinin Konteyner Daşımalarına Nəzarət üzrə Qlobal Proqram çərçivəsində (KDNQP) təyin olunmuş yeni üzvlər 5 təlimdə iştirak etmişlər.

2019-cu ilin aprel ayında Bakı şəhərində Narkotiklərlə Mübarizə üzrə Beynəlxalq 36-cı Konfransın, Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və Ümumdünya Gömrük Təşkilatının (ÜGT) birgə layihəsi olan Konteyner Daşımalarına

Nəzarət üzrə Qlobal Proqram (KDNQP) çərçivəsində may ayının əvvəllərində Türkmənistan Gömrük Xidməti nümayəndə heyətinin səfərinin, eləcə də may ayının sonunda Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının Hüquq Mühafizə Bölmələri Başçılarının Komitəsinin (MDB GXRŞ HMBBK) 19-cu iclası və onun işçi qruplarının iclaslarının, Konteyner Daşımalarına Nəzarət üzrə Qlobal Proqram çərçivəsində çərçivəsində Amerika Birləşmiş Ştatları (ABŞ) Dövlət Departamentinin Cənubi Qafqaz ölkələri üzrə Sərhədlərin Təhlükəsizliyinin Təmin Olunmasına Yardım və İxraca Nəzarət Proqramının meneceri və BMTNCİ-nin Gürcüstandakı Regional Ofisinin rəhbərinin 19-21 sentyabr tarixlərində Azərbaycan Respublikasına tanışlıq səfərinin, 23 sentyabr tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin (DGK) nümayəndə heyəti ilə ABŞ Daxili Təhlükəsizlik Nazirliyinin Gömrük və Sərhəd Mühafizəsi İdarəsinin nümayəndə heyəti arasında yük hədəfləmə sistemi mövzusunda görüşün təşkili ilə bağlı müvafiq tədbirlər görülmüşdür.

Bununla yanaşı, Konteyner Daşımalarına Nəzarət üzrə Qlobal Proqram çərçivəsində Astara gömrük postunda və Beynəlxalq Dəniz Ticarət Limanı gömrük postunda fəaliyyət göstərən liman nəzarət qruplarına yeni üzvlər təyin olunmuş və artan yük, nəqliyyat vasitəsi və sərnişin dövriyyəsi nəzərə alınmaqla onların sayı hər bir nəzarət qrupunda 6 nəfərə çatdırılaraq əlavə 2 nəfər əlaqələndirici təyin olunmaqla əlaqələndiricilərin sayı 3 nəfərə çatdırılmışdır. Astara gömrük postunda və Beynəlxalq Dəniz Ticarət Limanı gömrük postunda fəaliyyət göstərən liman nəzarət qruplarının üzvlərinin fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə və mövcud beynəlxalq tələblər nəzərə alınaraq Dövlət Gömrük Komitəsinin əməkdaşlarından ibarət Mərkəzi Nəzarət Qrupu yaradılmışdır.

Komitədə həyata keçirilən struktur dəyişiklikləri ilə əlaqədar adıçəkilən proqram çərçivəsində əldə olunmuş avadanlıqlar Bakı Baş Gömrük İdarəsi tərəfindən Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsinə təhvil verilmişdir. Nəzarət qrupunun üzvləri gördükləri işlərlə bağlı müntəzəm olaraq əlaqələndirici şəxsləri məlumatlandırmışdır.

Hesabat dövründə “CEN” (Gömrük hüquq mühafizə şəbəkəsi), “Containercomm”, “Global Shield” (Qlobal Qalxan), “RILO CIS Operational Platform” (RILO MDB ölkələri əməliyyat platformu) və PICS (narkotik vasitələrin və psixotrop maddələrin prekursorlarının qanunsuz dövriyyəsinin aşkar edilməsi faktları üzrə məlumat mübadiləsi sistemi) sistemləri ilə iş aparılaraq müvafiq məlumatların mübadiləsi təmin edilmişdir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 100/157 nömrəli 21.07.2018-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və İran İslam Respublikası Gömrük İdarəsi arasında 2018-2019-cu illər üçün gömrük hüquqpozmaları ilə mübarizə sahəsində əməkdaşlığın və qarşılıqlı yardımın səmərəliliyinin yüksəldilməsi üzrə Tədbirlər Planı”nın icrası üzrə hüquq mühafizə məsələlərinin həlli üçün Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfdən mərkəzi aparatda, Cənub Ərazi Baş Gömrük İdarəsində, Hava Nəqliyyatında Baş Gömrük İdarəsində və Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində məsul əlaqələndirici şəxslər müəyyən edilərək qarşı tərəfə bildirilmişdir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 100/139 nömrəli 04.07.2018-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası və Türkiyə Respublikası gömrük orqanlarının 2018-2019-cu illər üçün gömrük hüquqpozmaları ilə

mübarizə sahəsində əməkdaşlığının və qarşılıqlı yardımının səmərəliliyinin yüksəldilməsi üzrə Tədbirlər Planı”nın icrası üzrə hüquq mühafizə məsələlərinin həlli üçün Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfdən mərkəzi aparatda, Hava Nəqliyyatında Baş Gömrük İdarəsində və Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində, ümumilikdə 3 nəfər məsul əlaqələndirici şəxslər müəyyən edilmiş və qarşı tərəfə bildirilmişdir.

2019-cu ilin iyul ayının 1-5 tarixlərində amerikalı ekspertlərin iştirakı ilə Naxçıvanda qaçaqmalçılıq hallarının aşkar edilməsi, nəqliyyat vasitələrinin yoxlanılması, texniki nəzarət vasitələrindən istifadə və riskin müəyyən edilməsi üsulları ilə bağlı təcrübə məsələlərinə dair və praktiki məşğələləri də əhatə edən Azərbaycan-Türkiyə birgə təlimi keçirilmiş və həmin təlim çərçivəsində gömrük əməkdaşlarının iştirakı təmin edilərək təcrübə və məlumat mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 1000/021 nömrəli 28.01.2019-cu il tarixli sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Federal Gömrük Xidməti (Rusiya Federasiyası) arasında malların hava nəqliyyatı ilə daşınması ilə bağlı gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində qarşılıqlı fəaliyyət haqqında Protokolun müddəalarının həyata keçirilməsi ilə bağlı Tədbirlər Planının icrası üzrə hava nəqliyyatı ilə malların qanunsuz daşınmasına dair hüquqpozmaları hazırlayan, törədən və ya törətmiş şəxslər barədə məlumatların mübadiləsinin həyata keçiriləcəyi hava limanlarının siyahısı Rusiya Federal Gömrük Xidməti ilə qarşılıqlı şəkildə razılaşdırılmış, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsindən və qarşı tərəfdən məlumat mübadiləsini həyata keçirəcək səlahiyyətli bölmələrin məsul şəxslərinin siyahıları Rusiya Federal Gömrük Xidməti qarşılıqlı şəkildə mübadilə edilmiş və Azərbaycan Respublikasının gömrük qanunvericiyinin pozulması ilə hava nəqliyyatı vasitəsilə daşınan və barəsində məlumat mübadiləsi aparılacaq malların siyahısı və təcili məlumatın ötürülməsi forması Rusiya Federal Gömrük Xidməti ilə məktub mübadiləsi yolu ilə qarşılıqlı şəkildə razılaşdırılmışdır.

Rusiya və Azərbaycan tərəfləri arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində aşkarlanmış faktlar üzrə barəsində icraat aparılmış Rusiya və Azərbaycan vətəndaşlarına dair məlumatlar beynəlxalq qorunan məlumat mübadiləsi kanalı (RILO CIS Operational Platform) vasitəsilə qarşılıqlı şəkildə mübadilə edilmişdir.

2019-cu il ərzində Dövlət Gömrük Komitəsi “Çasavoy-2019”, “Sesha 3”, “Atena 2”, “Filtr”, “Demetra 5” və “Qamma-2019” kimi beynəlxalq əməliyyatlarda iştirak etmiş və müvafiq məlumat mübadiləsi aparılmışdır.

Ümumilikdə, 2019-cu il ərzində hüquq mühafizə fəaliyyəti sahəsində milli, beynəlxalq və regional təşkilatlarla, xarici dövlətlərin gömrük və digər hüquq mühafizə orqanları ilə əməkdaşlıq daha da gücləndirilmiş, məlumat və təcrübə mübadiləsi genişləndirilmişdir.

## VI. TEXNOLOJİ VƏ SOSİAL İNNOVASİYALAR ÜZRƏ GÖRÜLƏN TƏDBİRLƏR

2019-cu il ərzində elektron gömrük xidmətlərinin göstərilməsi sahəsində mühüm işlər görülmüş, yeni elektron xidmətlər yaradılmış və istifadəyə verilmişdir.

- Belə ki, üçüncü şəxslərin adına mal idxal edən xarici ticarət iştirakçılarına gətirdikləri malları bəyan etmələri üçün elektron xidmət;
- Şirkətlər tərəfindən “Yaşıl dəhliz” buraxılış sistemindən istifadə hüququnun əldə edilməsi üzrə elektron xidmət hazırlanmışdır. Xidmətin Elektron Hökumət Portalına inteqrasiyası üzrə işlər davam etdirilir. Azərbaycan Respublikasının Vergilər Nazirliyinin əməkdaşlarına həmin şəxslərin bəyan etdikləri mallara dair məlumatları onlayn qaydada əldə etmək imkanı təmin edilmişdir.
- Şirkətlər tərəfindən gömrük təmsilçiliyinin həyata keçirilməsi üçün sənədlərin Komitənin rəsmi internet səhifəsi vasitəsilə elektron qaydada gömrük orqanlarına təqdim edilməsi və onların qeydiyyatının aparılması üzrə elektron xidmət;
- Təmsilçilik hüququ əldə etmiş şirkətlərin əməkdaşlarının Komitənin rəsmi internet səhifəsi vasitəsilə müraciət etməklə imtahanlarda iştirak etməsi üçün sistem yaradılmışdır.
- Sərhəddən sürətli keçidin təmin edilməsi məqsədilə “Elektron növbə” və “Sürətli keçid” elektron gömrük xidmətləri hazırlanmışdır. Layihənin əsas məqsədi Komitənin elektron xidmətlərindən istifadə etməklə şəxslərin və nəqliyyat vasitələrinin dövlət sərhədinin buraxılış məntəqələrində canlı növbədə durmadan sürətli keçidini təmin etməklə vətəndaş məmnunluğunu təmin etməkdir. Nəqliyyat vasitəsini idarə edən şəxslər internet üzərindən (o cümlədən mobil vasitələrlə) sərhədi keçəcəyi təxmini vaxtı daxil etməklə qeydiyyatdan keçir (növbə tutur) və seçdikləri vaxtda dövlət sərhədinin buraxılış məntəqəsindən növbəsiz sürətli keçidə nail olurlar.
- “Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş hallarda idxal-ixrac vergilərindən azadolma haqqında sertifikatın verilməsi" elektron gömrük xidmətində təkmilləşdirmələr edilmiş, idxal-ixrac rüsumundan azad olma sertifikatlarına əlavə olunan yeni mal kodları və sənədlərin rəsmiləşdirmə zamanı sistemdə görünməsi təmin edilmişdir.
- ÜGT-nin elektron təhsil – “CLiKC! e-Learning” sistemi gömrük xidmətində istifadəyə verilmişdir. Yaradılan lokal və uzaq məsafədən elektron təhsil sistemi gömrük əməkdaşları və Dövlət Gömrük Komitəsinin Akademiyasının tələbələri üçün nəzərdə tutulmuşdur.

“Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üzrə elektron Gömrük Bəyannaməsinin qəbulu, gömrük rəsmiləşdirilməsi və rəsmiləşdirilmə prosesinin onlayn monitorinqi” elektron gömrük xidmətində təkmilləşdirmələr aparılmış, sahibkarların məlumatlandırılması üçün yeni funksiyalar əlavə edilmişdir.

2019-cu il ərzində elektron gömrük xidmətlərindən istifadə üzrə statistika aşağıdakı kimi olmuşdur:

| № | Xidmətin adı | Müraciətlərin sayı | | |
|---|---|---|---|---|
| | | cəmi | Azərbaycan | əcnəbi |
| 1 | e-İlkin Məlumatlandırma | 242 | | |
| 2 | e-Gömrük Bəyannaməsi/Sərnişin | 1 669312 | 1 464088 | 205224 |
| 3 | e-İdxal / İxrac Əməliyyatları | 119769 | | |
| 4 | e-Gömrük Ekspertizası | 1237 | | |
| 5 | e- GÖÖEN (Gömrük ödənişlərinin ödəyicisinin eyniləşdirmə nömrəsinin alınması) | 48856 | 46498 | 2358 |
| 6 | e-Gömrük Ödənişləri | 2 222494 | | |
| 7 | Vətəndaş müraciətləri, sorğu və şikayətlər | 1756 | | |
| 8 | Gömrük orqanlarına xidmətə qəbul üçün müraciətlər | 1234 | | |
| 9 | e-Gömrük Bəyannaməsi/Mal | 790913 | | |
| 10 | Gömrük bəyannamələri haqqında məlumatın verilməsi | 433294 | | |
| 11 | Sərhəd gömrük məntəqələrindən daxil olan malları haqqında məlumat | 248111 | | |

Hesabat dövründə Dövlət Gömrük Komitəsi ilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi, Dövlət Dəniz Administrasiyası və Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi arasında məlumat mübadiləsinin həyata keçirilməsi təmin edilmişdir.

- BYD kitabçasından istifadə etməklə həyata keçirilən beynəlxalq daşımalar zamanı məlumatların ilkin mübadiləsi sisteminin Komitənin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminə (VAİS) inteqrasiyası;
- “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi (İAMAS) və Azərbaycan Respublikasının Vergilər Nazirliyinin informasiya sistemi ilə məlumat mübadiləsi;
- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin informasiya sistemi ilə Komitənin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi (VAİS) arasında İnterpol və MDB üzrə axtarışda olan nəqliyyat vasitələrinin real vaxt rejimində mübadiləsi;

- Silahların Respublika ərazisinə gətirilməsinə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən verilən icazə sənədlərinin VAİS tərəfindən real vaxt rejimində qəbul edilməsi;
- Kənd Təsərrüfatı Nazirliyinin "E-Aqro" Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi ilə VAİS arasında gömrük bəyannaməsi məlumatları üzrə inteqrasiyası;
- Azərbaycan Respublikası Vergilər Nazirliyinin əməkdaşlarına VAİS-dən real vaxt rejimində gömrük bəyannamələri haqqında məlumatların əldə edilməsi imkanı yaradılması;
- Azərbaycan Respublikası Vergilər Nazirliyinin və Dövlət Gömrük Komitəsinin informasiya sistemləri arasında risk qrupuna daxil edilən şəxslər və onların apardıqları əməliyyatlar haqqında (risk profilləri) məlumat mübadiləsi;
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin informasiya sistemi ilə VAİS arasında investisiya təşviqi sənədi üzrə məlumat mübadiləsi;
- "Gömrük bəyannamələri haqqında məlumatın verilməsi" elektron gömrük xidmətindən istifadə etməklə Respublikada fəaliyyət göstərən bank təşkilatları tərəfindən VAİS-ə daxil edilən məlumatlar əsasında konsiqnasiya yolu ilə ixrac olunan mallara görə valyuta daxilolmaları üzrə məlumatların gündəlik olaraq Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasına ötürülməsi;
- Gömrük Hospitalının informasiya sisteminin İAMAS-a inteqrasiya olunması təmin edilmişdir.
- Xarici ticarətin gömrük statistikası sahəsində görülmüş işlərlə bağlı olaraq Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında" 24 iyun 1997-ci il tarixli 609 saylı Fərmanının tələblərinə uyğun olaraq hər ay xarici ticarətin vəziyyətini əks etdirən məlumat bazası Dövlət Statistika Komitəsinə, Mərkəzi Banka və Vergilər Nazirliyinə təqdim olunmuşdur.

2018-ci ilin yekunu və 2019-cu ilin keçən hər ayı üzrə idxal-ixrac əməliyyatları Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikasının metodologiyasına uyğun olaraq təhlil edilmiş, müvafiq təhlil arayışları 2018-ci ilin III və IV rübləri, 2018-ci il (illik) və 2019-cu ilin I-III rübləri üzrə Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikası bülletenlərinin materialları hazırlanmış və Dövlət Gömrük Komitəsinin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

Qeyd edək ki, hesabat dövründə ölkə başçısının tövsiyələrini, könüllülük fəaliyyətinin ictimai, sosial və tərbiyəvi əhəmiyyətini rəhbər tutaraq, Dövlət Gömrük Komitəsinin sistemində gənclərin potensialından daha səmərəli istifadə etmək, onlara peşə vərdişlərini aşılamaq və təcrübi biliklərini artırmaq, startap layihələri ilə bağlı cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək və inkişaf etdirmək məqsədilə tərəfindən "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sistemində könüllülük hərəkatının inkişafı ilə bağlı tədbirlər haqqında" 6 mart 2019-cu il tarixli 1000/067 saylı Sərəncam imzalanmışdır. Məlum Sərəncamın tələblərinə müvafiq olaraq, Dövlət Gömrük Komitəsində ilk dəfə olaraq "Könüllü gömrükçü" dəstəsinin yaradılması nəzərdə tutulmuşdur. İlk "Könüllü gömrükçü" dəstəsinin formalaşdırılması ilə əlaqədar bir sıra

tədbirlər həyata keçirilmişdir və nəticə etibarilə Komitədə və onun strukturlarında fəaliyyət göstərəcək könüllülərin sayı müəyyən edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən ASAN Könüllülük məktəbinin “Master 2” pilləsi çərçivəsində təşkil olunmuş müsahibələrdə 159-dan artıq könüllü iştirak etmiş və gömrük orqanlarında təcrübədə iştirak etmək istəyən həmin könüllülər arasından 64 nəfər könüllü seçilmişdir.

Hər bir “Könüllü gömrükçü” dəstəsinin üzvü ilə Azərbaycan Respublikası “Könüllü fəaliyyət haqqında” Qanununun tələbinə müvafiq olaraq müqavilə bağlanılmış və hər bir könüllü xüsusi geyim dəsti ilə təmin olunmuşdur.

Eyni zamanda, Dövlət Gömrük Komitəsinin Akademiyasının 62 nəfər tələbəsi də könüllü fəaliyyətinə cəlb olunmuşdur. Ümumilikdə, gömrük orqanlarında ilk dəfə olaraq 131 nəfər könüllü gömrükçü fəaliyyətə başlamış və onlardan bəzilərinin fəaliyyətlərinə müxtəlif səbəblərdən xitam verilmiş, nəticə etibarilə 4 ayın sonunda 116 nəfər könüllüyə sertifikat təqdim olunmuşdur.

Habelə, Dövlət Gömrük Komitəsinin customs.gov.az rəsmi internet səhifəsinin müraciətlər bölməsində “Könüllü gömrükçü” alt bölməsi yaradılmışdır ki, bu da öz növbəsində növbəti dəfə könüllü olmaq istəyən gənclər üçün münbit formada müraciət etmək şəraitini yaratmışdır.

Yaradılan həmin alt bölmə vasitəsilə qeydə alınmış müraciətlər əsasında hesabat dövrünün sentyabr ayı ərzində müsabiqə təşkil olunaraq 2-ci "Könüllü gömrükçü” dəstəsi formalaşdırılmış və 118 nəfər könüllü gömrükçü (45 nəfər oğlan, 73 nəfər xanım olmaqla) öz fəaliyyətinə başlamışdır.

"ASAN xidmət" mərkəzlərində vətəndaşlara göstərilən gömrük xidmətlərinin sayının artırılması, eyni zamanda həmin gömrük xidmətlərinin daha da səmərəli formada və yeni üsullarla təqdim edilməsi, habelə vətəndaş məmnuniyyətinin yüksəldilməsi istiqamətində bir sıra işlər görülmüşdür.

Belə ki, Komitə sədrinin 19.11.2018-ci il tarixli 1000/275 saylı sərəncamı ilə təsdiq olunmuş “Diplomatik poçtun və konsul valizinin, həmçinin xarici dövlətlərin nümayəndəlikləri və onların əməkdaşları, habelə digər qeyri-rezidentlər tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə güzəştli qaydada gətirilən malların gömrük rəsmiləşdirilməsi və gömrük nəzarətinə dair” Texnoloji Sxemə əsasən 5 saylı Bakı “ASAN xidmət” mərkəzində diplomatik yüklərin rəsmiləşdirilməsinə başlanılmışdır.

Məlumat üçün qeyd edək ki, 5 saylı Bakı “ASAN xidmət” mərkəzində cari ilin hesabat dövrü ərzində diplomatik nümayəndəliklər, beynəlxalq təşkilatlar və onların əməkdaşlarına məxsus yüklərin rəsmiləşdirilməsi məqsədilə 532 gömrük bəyannaməsi tərtib edilmişdir. Bu proseslərin həyata keçirildiyi dövr ərzində diplomatik nümayəndəliklər tərəfindən 5 saylı Bakı “ASAN xidmət” mərkəzində şikayət qeydə alınmamışdır.

Ümumiyyətlə, 2019-cu il ərzində respublikamızın “ASAN xidmət” mərkəzlərindəki “M” gömrük pəncərəsinə 6 794 vətəndaş müraciəti daxil olmuş, bu müraciətlər mövcud gömrük qanunvericiliyinə uyğun olaraq gömrük əməkdaşları tərəfindən cavablandırılmışdır.

## VII. BEYNƏLXALQ ƏMƏKDAŞLIQ İSTİQAMƏTİNDƏ GÖRÜLƏN İŞLƏR

Gömrük işi sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi və genişləndirilməsi məqsədilə Dövlət Gömrük Komitəsi tərəfindən digər ölkələrin gömrük orqanları ilə beynəlxalq normalara uyğun saziş, protokol və aidiyyəti sənədlər hazırlanmış, həmçinin müvafiq tədbirlər görülmüşdür.

- Belə ki, 19 fevral 2019-cu il tarixdə Bakı şəhərində “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Böyük Britaniyanın Sərhəd Direktoratlığı adından çıxış edən Daxili İşlər Departamentinin Dövlət Katibliyinin Birgə Bəyanatı”;
- 11 mart 2019-cu il tarixdə Astana şəhərində “Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin gömrük idarələri arasında gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu”;
- 15 mart 2019-cu il tarixdə Bakı şəhərində “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və İran İslam Respublikası Gömrük Administrasiyası arasında görüşün protokolu”;
- 29 may 2019-cu il tarixdə Bakı şəhərində “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Belarus Respublikasının Dövlət Gömrük Komitəsi arasında Azərbaycan Respublikası və Belarus Respublikası arasında keçirilən mallar və nəqliyyat vasitələri barədə ilkin məlumat mübadiləsinin təşkili haqqında Saziş”;
- 13 iyun 2019-cu il tarixdə Dövlət Gömrük Komitəsinin "Maersk" və "IBM" şirkətlərinin birgə hazırladıqları, blokçeyn texnologiyasına əsaslanan təchizat zənciri platforması olan "TradeLens"ə qoşulmasına dair sənəd;
- 28 iyun 2019-cu il tarixdə Brüssel şəhərində keçirilən Gömrük Əməkdaşlıq Şurasının 133/134-cü sessiyaları çərçivəsində Dövlət Gömrük Komitəsi ilə ÜGT arasında "ÜGT-nin e-learning Modullarından istifadə üzrə Lisenziya" verilməsinə dair sənəd;
- 10 sentyabr 2019-cu il tarixdə “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası ilə Rusiya Gömrük Akademiyası arasında təhsil və elm sahələrində əməkdaşlıq haqqında Memorandum”;
- 11 sentyabr 2019-cu il tarixdə “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və “HUAWEI TECH. AZERBAIJAN” MMC arasında əməkdaşlığa dair Niyyət Protokolu”;
- 10 oktyabr 2019-cu il tarixdə Türkiyə Respublikasının Ankara şəhərində keçirilmiş Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Türkiyə Respublikası Ticarət Nazirliyi arasında gömrük məsələləri üzrə Birgə Komitənin 3-cü iclası çərçivəsində “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkiyə Respublikasının Ticarət Nazirliyi arasında Gömrük Məsələləri üzrə Birgə Komitənin üçüncü İclasının Protokolu” və "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikasının Ticarət Nazirliyi arasında 2019-2020-ci illər üzrə gömrük işi sahəsində əməkdaşlığın və qarşılıqlı yardımın səmərəliliyinin yüksəldilməsinə dair Tədbirlər Planı";

- 11 oktyabr 2019-cu il tarixdə Türkiyə Respublikasının Ankara şəhərində "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sadələşdirilmiş gömrük dəhlizi haqqında Anlaşma Memorandumu";
- 21 noyabr 2019-cu il tarixdə “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Özbəkistan Respublikasının Dövlət Gömrük Komitəsi arasında dövlət sərhədindən keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə Protokol”un 5-ci maddəsinə uyğun olaraq Daşkənd şəhərində “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Özbəkistan Respublikasının Dövlət Gömrük Komitəsi arasında qarşılıqlı informasiya fəaliyyətinin texniki şərtləri” barədə sənəd imzalanmışdır.

2019-cu il ərzində bir sıra layihələr Azərbaycan Respublikası Prezidentinin 373 saylı 19 yanvar 2011-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması və ya ləğv edilməsi haqqında təkliflərin mərkəzi icra hakimiyyəti orqanları və dövlətə məxsus müəssisələr tərəfindən verilməsi Qaydaları”na əsasən baxılması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmişdir.

- Belə ki, “Azərbaycan Respublikası Hökuməti ilə Əfqanıstan Respublikası Hökuməti arasında gömrük məsələlərində qarşılıqlı inzibati yardım və əməkdaşlıq haqqında Saziş”;
- “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Federal Gömrük Xidməti (Rusiya Federasiyası) arasında müəyyən növ mallara münasibətdə gömrük nəzarətinin nəticələrinin elektron şəkildə qarşılıqlı tanınması haqqında Protokol”;
- “Azərbaycan Respublikası Hökuməti ilə Meksika Birləşmiş Ştatları Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı inzibati yardım və məlumat mübadiləsi haqqında Saziş”;
- “Azərbaycan Respublikası Hökuməti ilə Hindistan Respublikası Hökuməti arasında gömrük məsələlərində qarşılıqlı inzibati yardım və əməkdaşlıq haqqında Saziş”;
- “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Bəhreyn Krallığının Gömrük Xidməti arasında gömrük əməkdaşlığı haqqında Saziş”;
- “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Qazaxıstan Respublikasının Maliyyə Nazirliyi arasında müəyyən növ mallara münasibətdə gömrük nəzarətinin nəticələrinin qarşılıqlı tanınması haqqında Protokol”;
- “Azərbaycan Respublikası Hökuməti ilə Banqladeş Xalq Respublikası Hökuməti arasında gömrük məsələlərində əməkdaşlıq və qarşılıqlı inzibati yardım haqqında Saziş”;
- “Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında malların mənşəyinin elektron sertifikatlaşdırılması sisteminin qarşılıqlı tətbiqi haqqında Protokol”.

Həmçinin, hesabat dövründə bir sıra saziş və memorandum imzalanması məsələsinə baxılması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmişdir.

- Belə ki, "Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında dövlət sərhədindən buraxılış məntəqələri haqqında Saziş" layihələrinin aidiyyəti dövlət strukturlarından alınmış rəy və təkliflər nəzərə alınmaqla Dövlət Gömrük Komitəsində ümumiləşdirilmiş son mətnləri;
- "Azərbaycan Respublikası Hökuməti və Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş" layihəsi;
- "Müvəqqəti İdxal Konvensiyası"sına qoşulma ilə bağlı aidiyyəti dövlət strukturları tərəfindən münasibət bildirilmiş mətn;
- "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Amerika Birləşmiş Ştatlarının Narkotiklərlə Mübarizə Administrasiyası arasında əməkdaşlıq Memorandumu" layihəsi;
- "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Gürcüstan Maliyyə Nazirliyi Gəlirlər Xidməti, Moldova Respublikasının Maliyyə Nazirliyi yanında Gömrük Xidməti və Ukraynanın Dövlət Gömrük Xidməti arasında gömrük işi sahəsində kadrların hazırlığı və ixtisaslarının artırılmasında qarşılıqlı fəaliyyət haqqında Memorandum" layihəsi.

Qeyd edək ki, "Gömrük Xidmətləri arasinda BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə Ofisinin və ÜGT-nin Konteyner Daşımalarına Nəzarət üzrə Qlobal Proqramı çərçivəsində Gömrük Xidmətlərinin və Liman Nəzarəti Qruplarının Regionlararası Şəbəkəsinin yaradılması haqqında Anlaşma Memorandumu"na ölkəmizin qoşulması məsələsi ilə bağlı zəruri prosedurla və "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Birləşmiş Ərəb Əmirliklərinin Federal Gömrük Orqanı arasında Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili haqqında Saziş" layihəsi hazırlanaraq müvafiq proseduralardan keçirilməsi istiqamətində işlər davam etdirilir.

Eyni zamanda, Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında yeni ikitərəfli Saziş layihəsinin 2018-ci ildən etibarən danışıqlar prosesində iştirak edilmiş və Dövlət Gömrük Komitəsi ümumi olaraq Saziş layihəsi üzrə 18 fəsildən ibarət olan ticarət blokunun 9 fəslində öz əksini tapan aidiyyəti məsələlərin müzakirəsindən məsul qurum olaraq müəyyən edilmişdir. Məlumat qaydasında bildirmək istərdik ki, "Gömrük", "Gömrük məsələləri üzrə qarşılıqlı inzibati yardım protokolu", "Ticarətə texniki maneələr", "Əqli Mülkiyyət Hüquqları", "Xidmətlər" fəsilləri üzrə danışıqlar yekunlaşdırılmış və geri qalan fəsillərdə isə açıq qalan məsələlərin müzakirəsi davam etdirilir.

Qeyd edilənlərlə yanaşı, imzalanan bəzi sazişlər 2019-cu ildə qüvvəyə minmişdir.

- Belə ki, "Gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında 15 aprel 1994-cü il tarixli Sazişə dəyişikliklər edilməsi barədə Protokol" Azərbaycan Respublikasının 12 fevral 2019-cu il tarixli 1498-VQ saylı Qanunu ilə təsdiq edilmişdir.
- "Azərbaycan Respublikası və Türkmənistan arasında keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkmənistanın Dövlət Gömrük Xidməti arasında Saziş" Azərbaycan Respublikasının 12 fevral

2019-cu il tarixli 1497-VQ saylı Qanunu ilə təsdiq edilmiş və 12 mart 2019 tarixdən qüvvəyə minmişdir.

- “Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyasının Hökuməti arasında elektrikötürücü xətlər və boru kəməri vasitəsilə keçirilən mallar üzərində gömrük nəzarəti haqqında Saziş” 14 fevral 2019-cu il tarixdən qüvvəyə minmişdir.
- “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Federal Gömrük Xidməti (Rusiya Federasiyası) arasında malların hava nəqliyyatı ilə daşınması ilə bağlı gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində qarşılıqlı fəaliyyət haqqında Protokol” 17 yanvar 2019-cu il tarixdən qüvvəyə minmişdir.
- “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikasının Hökuməti arasında Avtomobil nəqliyyatı ilə tranzit daşımalar haqqında ilkin elektron məlumat mübadiləsi sisteminin yaradılmasına dair Saziş” 31 oktyabr 2019-cu il tarixdən qüvvəyə minmişdir.

Qeyd etmək istərdik ki, 2019-cu il ərzində Dövlət Gömrük Komitəsi tərəfindən bir neçə regional və beynəlxalq səviyyəli tədbirlər hazırlanmış və keçirilmişdir:

Belə ki, 15 yanvar 2019-cu il tarixdə Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Ümumdünya Ticarət Təşkilatının "Ticarətin Asanlaşdırılması Sazişi"nin gömrüklə bağlı müddəalarının tətbiqinə dair" subregional seminar;

28 yanvar 2019-cu il tarixdə Bakı şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində Gömrük Tranzitinin Asanlaşdırılması üzrə regional seminar;

28-30 yanvar 2019-cu il tarixdə ÜGT-nin Avropa Regionunun Potensialın Gücləndirilməsi üzrə Milli Əlaqələndirici Şəxslərinin İclası;

31 yanvar - 2 fevral 2019-cu il tarixlərində Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün “E-learninq sistemindən istifadə qaydaları”na dair seminar;

4-8 fevral 2019-cu il tarixlərində “İnsan resurslarının idarəedilməsi sahəsində ixtisaslaşmış ÜGT Gömrük Modernləşdirilməsi Məsləhətçilərinin Akkreditasiyası” mövzusunda seminar;

18-19 fevral 2019-cu il tarixlərində Türkiyənin Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminin tətbiqindəki təcrübəsinin öyrənilməsi məqsədilə Dövlət Gömrük Komitəsinin nümayəndələri üçün təlim;

25-26 fevral 2019-cu il tarixlərində Bakı şəhərində “Səyahətçilər üzərində səmərəli gömrük nəzarətinin aparılması” mövzusunda seminar;

12-14 mart 2019-cu il tarixlərində Azərbaycan Respublikası və İran İslam Respublikası arasında Elektron BYD (eTİR) Sisteminin pilot layihəsinin tətbiqinə dair Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının nümayəndələrinin iştirakı ilə görüş;

27 mart 2019-cu il tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional ofisində Yaponiyalı ekspertlər tərəfindən Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün "Azərbaycanda gömrük laboratoriyalarının potensialının artırılması" mövzusunda seminar;

15-17 aprel 2019-cu il tarixlərində Bakı şəhərində Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfrans;

21-23 may 2019-cu il tarixlərində Bakı şəhərində Müstəqil Dövlətlər Birliyi üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının Hüquq Mühafizə Bölmələri Başçıları Komitəsinin 19-cu iclası;

6 iyun 2019-cu il tarixində Dərbənd şəhərində Rusiya Federal Gömrük Xidməti və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin nümayəndələri arasında həmsərhəd gömrük idarələrinin fəaliyyəti ilə bağlı işçi görüş;

10-11 iyun 2019-cu il tarixlərində Bakı Biznes Mərkəzində ÜGT-nin Məlumat Modeli ilə bağlı seminar və Qeyri-intruziv nəzarət üzrə Texniki Ekspertlər Qrupunun iclası;

12-14 iyun 2019-cu il tarixlərində Bakı şəhəri "Heydər Əliyev Mərkəzi"ndə "Ağıllı sərhədlər üçün yeni texnologiyalar-Ticarət, Səyahət və Daşımalar üçün yeni imkanlar" mövzusunda Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları Texnoloji İnnovasiyalar üzrə 2019-cu il Konfrans və Sərgisi;

18 iyun 2019-cu il tarixində İran İslam Respublikasının Astara şəhərində Azərbaycan Respublikası və İran İslam Respublikasının gömrük orqanları arasında həyata keçirilən eTIR pilot layihəsinin açılış mərasimi;

20 sentyabr 2019-cu il tarixində Xaçmaz şəhərində Azərbaycan və Rusiya gömrük xidmətinin nümayəndələri arasında işçi görüş;

24-26 sentyabr 2019-cu il tarixlərində Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında idxal-ixrac olunan malların xarici ticarətinə dair məlumatların araşdırılması ilə bağlı görüş;

24-26 sentyabr 2019-cu il tarixlərində Dövlət Gömrük Komitəsinin Akademiyasında Azərbaycan gömrük xidmətinin əməkdaşları üçün Rusiya Gömrük Akademiyasının mütəxəssisi Dmitri Afonin tərəfindən "Body Scan avadanlığının rentgen görüntülərinin dəqiq və düzgün oxunması" mövzusunda təlim;

30 sentyabr-4 oktyabr 2019-cu il tarixlərində Dövlət Gömrük Komitəsinin Akademiyasında "Smiths Heimann Rus" şirkətinin mütəxəssisi Nikolay Semenov tərəfindən Azərbaycan gömrük xidmətinin əməkdaşları üçün "B-Scan" avadanlığının istismarı və servis işlərinin öyrənilməsi məqsədilə təlim;

17-18 oktyabr 2019-cu il tarixlərində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Karvansaray" layihəsi çərçivəsində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (TDƏŞ) üzv dövlətlərin gömrük xidmətlərinin ekspertlərinin texniki iclası;

30-31 oktyabr 2019-cu il tarixlərində İran İslam Respublikasının Ərdəbil şəhərində İran İslam Respublikası, Azərbaycan Respublikası və Gürcüstanın gömrük xidmətlərinin nümayəndələri arasında üçtərəfli görüş;

29 noyabr 2019-cu il tarixdə Dərbənd şəhərində Rusiya Federal Gömrük Xidməti və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin nümayəndələri arasında həmsərhəd gömrük idarələrinin fəaliyyəti ilə bağlı işçi görüş;

17 dekabr 2019-cu il tarixində ÜGT-nin layihə menecerləri Robert Uayt və Kristian Moldovanın iştirakı ilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsində ÜGT-nin Yüklərin Hədəflənməsi Sistemi barədə təqdimat keçirilmişdir.

2019-cu il ərzində Dövlət Gömrük Komitəsi ilə bir sıra xarici ölkələrin nümayəndələri arasında ikitərəfli görüşlər keçirilmiş və ətraflı fikir mübadilələri aparılmışdır.

Belə ki, 14 yanvar 2019-cu il tarixində Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya ilə;

16 yanvar 2019-cu il tarixində İtaliya Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Augusto Massarinin başçılıq etdiyi nümayəndə heyəti ilə;

23 yanvar 2019-cu il tarixində Türkmənistanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Mekan İşanquliyevin başçılıq etdiyi nümayəndə heyəti ilə;

24 yanvar 2019-cu il tarixində MÜSİAD Azərbaycan nümayəndə heyəti ilə;

29 yanvar 2019-cu il tarixində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə direktor müavini xanım Brenda Mundia ilə;

19 fevral 2019-cu il tarixində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi xanım Baroness Nikolsonunun başçılıq etdiyi nümayəndə heyəti ilə;

15 mart 2019-cu il tarixində İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri cənab Fərhad Dejpəsəndin rəhbərlik etdiyi nümayəndə heyəti ilə;

18 aprel 2019-cu il tarixində İran İslam Respublikasının sənaye, mədən və ticarət naziri cənab Reza Rəhmaninin rəhbərlik etdiyi nümayəndə heyəti ilə;

18 aprel 2019-cu il tarixində Macarıstanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Viktor Sederkenyinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə;

22 aprel 2019-cu il tarixində İsrail Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Dan Stavın rəhbərlik etdiyi nümayəndə heyəti ilə;

6 may 2019-cu il tarixdə Türkmənistan Dövlət Gömrük Xidmətinin sədr müavini cənab Dövlət Bayruyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə;

8 may 2019-cu il tarixində Avstriya Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Aleksander Bayerl ilə;

21 may 2019-cu il tarixində BMT-nin Azərbaycandakı Rezident Əlaqələndiricisi cənab Qulam İsakzai ilə;

29 may 2019-cu il tarixində Belarus Respublikası Dövlət Gömrük Komitəsinin sədri cənab Yuriy Senkonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə;

29 may 2019-cu il tarixində Gürcüstan Gəlirlər Xidmətinin Rəhbəri Vaxtanq Laşkaradze ilə;

29 may 2019-cu il tarixində Ukrayna Dövlət Fiskal Xidmətinin sədrinin vəzifələrini icra edən cənab Aleksandr Vlasovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə;

11 iyun 2019-cu il tarixində Birləşmiş Ərəb Əmirlikləri Dubay Gömrük Administrasiyasının rəhbəri cənab Ahmed Musabihin rəhbərlik etdiyi nümayəndə heyəti ilə;

12 iyun 2019-cu il tarixində İran İslam Respublikası İqtisadi məsələlər və maliyyə nazirinin müavini, İran Gömrük İdarəsinin sədri cənab Mahdi Mirashrafinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə;

12 iyun 2019-cu il tarixində İtaliya Gömrük və Monopoliya Agentliyinin Baş direktoru cənab Benedetto Mineonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə;

12 iyun 2019-cu il tarixində "Huawei" şirkətinin Qlobal Hökumət işləri üzrə vitse-prezidenti Steven Şenqinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə;

13 iyun 2019-cu il tarixində Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycan nümayəndəliyinin rəhbəri cənab Vladimir Gjorgjievin rəhbərlik etdiyi nümayəndə heyəti ilə;

13 iyun 2019-cu il tarixində "Nuctech" şirkətinin vitse-prezidenti San Şanqminin rəhbərlik etdiyi nümayəndə heyəti ilə;

25 iyun 2019-cu il tarixində Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Earle D.Litzenberger ilə;

25 iyun 2019-cu il tarixində Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsi (INCU) Katibliyinin rəhbəri Mixail Kaşubski ilə;

25 iyun 2019-cu il tarixində Argentina Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Sergio Perez Gunella ilə;

28 iyun 2019-cu il tarixində Brüssel şəhərində keçirilən Gömrük Əməkdaşlıq Şurasının 133/134-cü sessiyaları çərçivəsində Ümumdünya Gömrük Təşkilatının Baş Katibi Kunio Mikuriya ilə;

29 iyun 2019-cu il tarixində Brüssel şəhərində keçirilən Gömrük Əməkdaşlıq Şurasının 133/134-cü sessiyaları çərçivəsində Avropa Komissiyası Vergi və Gömrük İttifaqının Beynəlxalq və Ümumi İşlər üzrə direktoru xanım Sabina Henzler ilə;

4 iyul 2019-cu il tarixində Moldova Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Gheorghe Leuca ilə;

5 iyul 2019-cu il tarixində İndoneziya Respublikası Ticarət Nazirliyinin nümayəndə heyəti ilə;

15 iyul 2019-cu il tarixində Koreya Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Kim Tong Op ilə;

16 iyul 2019-cu il tarixində İsrail Vergi İdarəsinin Baş direktoru cənab Eran Yaakovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə;

23 avqust 2019-cu il tarixində Tacikistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Rustam Soli ilə;

11 sentyabr 2019-cu il tarixində "HUAWAY" şirkətinin nümayəndələri ilə;

14 sentyabr 2019-cu il tarixində Türkiyə Respublikası ticarət nazirinin müavini Qönçə Yılmaz Baturun rəhbərlik etdiyi nümayəndə heyəti ilə;

7 oktyabr 2019-cu il tarixində Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri cənab Naveed Hassan Naqvi ilə;

8 oktyabr 2019-cu il tarixində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab James Sharp ilə;

10 oktyabr 2019-cu il tarixində Türkiyə Respublikasının Ankara şəhərində Türkiyə Respublikası Ticarət nazirinin müavini Qonca Yılmaz Baturla;

11 oktyabr 2019-cu il tarixində Türkiyə Respublikasının Ankara şəhərində Türkiyə Respublikasının Ticarət naziri Ruhsar Pekcan ilə;

16 oktyabr 2019-cu il tarixində İsveçrə Konfederasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Müriel Peneveyre ilə;

21 oktyabr 2019-cu il tarixində Meksika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Rodriqo Labardini ilə;

29 oktyabr 2019-cu il tarixində Kolumbiya Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Luis Antonio Dimate Kardenas ilə;

4 noyabr 2019-cu il tarixində Türkiyə Müstəqil Sənayeçi və İşadamları Dərnəyinin (MÜSİAD) İzmir şöbəsinin türkiyəli iş adamlarından ibarət nümayəndə heyəti ilə;

6 noyabr 2019-cu il tarixində Amerika Birləşmiş Ştatlarının (ABŞ) Narkotiklərlə Mübarizə Administrasiyasının nümayəndə heyəti ilə;

6 noyabr 2019-cu il tarixində İsrail Dövlətinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Dan Stavla;

7 noyabr 2019-cu il tarixində Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri cənab Naveed Hassan Naqvi ilə;

8 noyabr 2019-cu il tarixində ATƏT çərçivəsində Tacikistan Respublikasının sərhəd idarəçiliyi sahəsində çalışan yüksək vəzifəli şəxslərindən ibarət nümayəndə heyəti ilə;

15 noyabr 2019-cu il tarixində Asiya İnkişaf Bankının (ADB) Azərbaycan üzrə ölkə direktoru cənab Nəriman Mannapbekov ilə;

19 noyabr 2019-cu il tarixində BP şirkətinin nümayəndə heyəti ilə;

28 noyabr 2019-cu il tarixində Hindistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Vanlalvavna Bavitlunq ilə;

9 dekabr 2019-cu il tarixində Rusiya Federal Gömrük Xidməti rəhbərinin müavini Andrey Strukov ilə;

11 dekabr 2019-cu il tarixində Qatar Dövlətinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Faisal bin Abdullah Al Hanzab ilə görüşlər keçirilmiş və müsbət nəticələr əldə edilmişdir.

Qeyd edək ki, cari ilin 25-26 aprel 2019-cu il tarixlərində Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilmiş Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu Gömrük Xidməti Rəhbərlərinin Konfransında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri 2 il müddətinə bütün Avropa ölkələrinin dəstəyi ilə Ümumdünya Gömrük Təşkilatının Gömrük Əməkdaşlıq Şurasının sədr müavini, Avropa Regionu üzrə rəhbəri vəzifəsinə seçilmiş və 27-29 iyun 2019-cu il tarixlərində keçirilmiş ÜGT Şurasının 133/134-cü sessiyalarında rəsmi qərarla qeyd olunan vəzifəyə təsdiq edilmişdir.

## VIII. GÖMRÜK SƏRHƏD BURAXILIŞ MƏNTƏQƏLƏRİNİN İŞİNİN TƏŞKİLİ, GÖMRÜK İNFRASTRUKTURU VƏ MƏRKƏZİ GÖMRÜK EKSPERTİZASI İLƏ ƏLAQƏDAR GÖRÜLƏN İŞLƏR

Hesabat ilində “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında və milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində nəzərdə tutulmuş prioritetlərə uyğun olaraq, gömrük nəzarətinin həyata keçirilməsi ilə bağlı əlavə vaxt itkisinin azaldılması, xüsusilə beynəlxalq daşımalar zamanı sərhəd-keçid prosedurlarının sürətləndirilməsi, daha müasir sərhəd və logistik infrastrukturun yaradılması yolu ilə xarici ticarət iştirakçılarına və sərnişinlərə əlverişli şəraitin yaradılması, ticarət dövriyyəsinin artırılması məqsədilə Azərbaycan Respublikası və Rusiya Federasiyası sərhədində yerləşən “Xanoba” və “Şirvanlı” gömrük sərhəd buraxılış məntəqələrinin müasir standartlara cavab verəcək şəkildə yenidən qurulması istiqamətində danışıqlar aparılmış, bu barədə məlumatlar isə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim edilmişdir.

Eyni zamanda, Azərbaycan Respublikası ilə Gürcüstan arasında dövlət sərhədində avtonəqliyyat vasitələri ilə daşınan mallara birgə gömrük nəzarətinin həyata keçirilməsi məqsədi ilə “Qırmızı Körpü” gömrük sərhəd buraxılış məntəqəsinin yaxınlığında “Şıxlı” yaşayış məntəqəsinin ərazisində yerləşməsi nəzərdə tutulan yeni birgə buraxılış

məntəqəsinin inşa edilməsinə dair təklif hazırlanaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilmişdir.

Gürcüstanın Tbilisi şəhərində Azərbaycan və Gürcüstan gömrük xidmətlərinin nümayəndələri arasında keçirilmiş işçi görüşdə Asiya İnkişaf Bankının maliyyə dəstəyi ilə Azərbaycan Respublikası və Gürcüstan arasında inteqrasiya olunmuş sərhəd idarəçiliyi prinsipləri əsasında beynəlxalq standartlara cavab verən, birgə gömrük nəzarətinin tətbiq ediləcəyi yeni "İpək Yolu - Abreşumis Gza" gömrük sərhəd buraxılış məntəqəsinin layihələndirilməsi, həmçinin birgə gömrük nəzarətinin təşkilinə dair müzakirələr aparılmış və bununla əlaqədar hazırlanmış "Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında dövlət sərhədindən buraxılış məntəqələri haqqında Saziş" layihəsinin hər iki tərəfdən aidiyyəti dövlətdaxili prosedurlarından keçərək imzalandıqdan sonra, onun müddəalarına əsasən zəruri mexanizmin həyata keçirilməsi üçün Tərəflərin ekspertlərinin iştirakı ilə müvafiq qaydaların hazırlanması barədə razılıq əldə edilmişdir. Aidiyyəti dövlət strukturlarından alınmış rəy və təkliflər nəzərə alınmaqla "Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında dövlət sərhədlərindən buraxılış məntəqələri haqqında Saziş" layihəsinin Dövlət Gömrük Komitəsində ümumiləşdirilmiş son mətni müqabil tərəfə göndərilməsi məqsədilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə təqdim edilmişdir.

Gömrük işinin beynəlxalq standartlara uyğun aparılması, gömrük sərhəd buraxılış məntəqələrində gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsinə sərf olunan vaxtın azaldılması, baytarlıq, fitosanitar, sanitar və gömrük nəzarətinin vahid məkan ərazisində aparılması, eləcə də ticarət həcminin artırılması üçün əlverişli imkanların əldə olunması məqsədilə "Qırmızı Körpü" gömrük sərhəd buraxılış məntəqəsinin yaxınlığında "Ticarətin Asanlaşdırılması Mərkəzi"nin tikintisi və infrastukturunun qurulması prosesi yekunlaşdırılmışdır. Mərkəz yaxın zamanda xarici ticarət iştirakçılarının istifadəsinə veriləcəkdir.

Ticarətin Asanlaşdırılması Mərkəzlərində həyata keçirilən xidmətlərin vahid məkanda göstərilməsi prosesinin tənzimlənməsi məqsədilə "Ticarətin Asanlaşdırılması Mərkəzlərində xarici ticarət iştirakçılarına xidmətlərin göstərilməsinə dair Texnoloji Sxem" layihəsi hazırlanmışdır və qeyd olunan Mərkəzin maddi-texniki bazasının qurulması istiqamətində işlər davam etdirilməkdədir.

Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunun anbar binasında sərnişin yoxlama xətti yaradılmış, sanitar qovşağı, xidməti otaqlar tikilib istifadəyə verilmiş və təmir işləri aparılmışdır. Qeyd edilənlərlə yanaşı, Komitənin strukturuna daxil olan İdarələrin eləcə də, sərhəd keçid məntəqələrində mütəmadi olaraq təmir-tikinti və yenidənqurma işləri görülmüşdür.

İl ərzində Komitənin Mərkəzi Gömrük Ekspertizası İdarəsinə tədqiqat üçün daxil olmuş 9371 nümunə və nəqliyyat vasitələrinin idxalı ilə əlaqədar ekspress diaqnostik və verilənlər bazasındakı məlumatların təhlili üzrə 94 065 (doxsan dörd min altmış beş) müxtəlif sınaq və analizlər aparılmışdır. Onlardan 66 714-ü (altmış altı min yeddi yüz on dörd) nəqliyyat vasitəsinin sınağı ilə bağlı olmuş, ərazi və gömrük postlarından daxil olan müraciətlər əsasında mal partiyasına 2251 (iki min iki yüz əlli bir) faktiki baxış keçirilmişdir.

## IX. KADR MƏSƏLƏLƏRİ, PEŞƏKARLIĞIN ARTIRILMASI VƏ TİBBİ XİDMƏTİN GÖSTƏRİLMƏSİNƏ DAİR HƏYATA KEÇİRİLƏN TƏDBİRLƏR

Ötən dövrlərdə olduğu kimi, 2019-cu ildə də kadrların seçimi və yerləşdirilməsi ilə əlaqədar müvafiq işlər görülmüşdür.

Belə ki, müvafiq təqdimatlar və rotasiya qaydasında 540 əməkdaşın xidməti vəzifə yerinin dəyişdirilməsi, 368 əməkdaşa ilkin və 817 əməkdaşa növbəti xüsusi rütbənin verilməsi barədə əmrlər hazırlanmış və Komitə sədri tərəfindən təsdiqlənmişdir.

Ötən dövr ərzində 81 əməkdaşa Fəxri Fərman, 336 əməkdaşa Təşəkkür, 102 əməkdaşa vaxtından əvvəl xüsusi rütbənin verilməsi, 32 əməkdaşın üzərindən vaxtından əvvəl intizam tənbehinin götürülməsi, 1117 əməkdaşa pul mükafatı verilməsi, 24 əməkdaşa “Gömrük orqanlarında xidmətə görə” 1-ci dərəcəli döş nişanı, 55 əməkdaşa 2-ci dərəcəli döş nişanı, 123 əməkdaşa 3-cü dərəcəli döş nişanı, 26 əməkdaşa “Gömrük xidməti əlaçısı” döş nişanı, 6 əməkdaşa “Gömrük əməkdaşlığının möhkəmləndirilməsinə görə” döş nişanı, 2 əməkdaşa isə DGK-nın 25 illik yubiley medalı ilə təltif olunmaları barədə müvafiq əmrlər hazırlanmışdır. Bundan əlavə 5 xarici vətəndaşın “Gömrük əməkdaşlığının möhkəmləndirilməsinə görə” döş nişanı ilə təltif edilməsi barədə müvafiq əmrlər hazırlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2019-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş “Dövlət qulluqçusunun şəxsi işinin aparılması Qaydaları”nın 2 saylı əlavəsinə uyğun olaraq gömrük orqanlarının əməkdaşlarının kadrlar uçotunun şəxsi vərəqəsinin yenidən tərtib edilib şəxsi işlərə işlənməsi təmin edilmişdir.

Azərbaycan Respublikasının gömrük xidməti əməkdaşlarının peşəkar hazırlığının artırılması, xidmət səviyyəsinin yüksəldilməsi, vətəndaş məmnunluğunun təmin olunması, tam şəffaflığın təmin edilməsi, ümumilikdə gömrük xidməti fəaliyyətinin təkmilləşdirilməsi və müasir tələblər əsasında qurulması məqsədilə Dövlət Gömrük Komitəsinin Akademiyasında 2019-cu ildə gömrük xidməti əməkdaşları üçün müxtəlif mövzuları əhatə edən çoxsaylı qısamüddətli təlim proqramları həyata keçirilmişdir. 2019-cu il ərzində 700-dən yuxarı gömrük xidməti əməkdaşı yerli və xarici təlimçilər tərəfindən aparılan təlimlərdən keçmişdir. Bu təlimlər Dövlət Gömrük Komitəsi, müxtəlif dövlət qurumları, həmçinin xarici və beynəlxalq tərəfdaş qurumlarından dəvət olunmuş ekspertlər tərəfindən aparılmışdır.

Daxil olmuş müraciətlər üzrə və yoxlamaların nəticələri əsasında aparılmış araşdırmalar zamanı aşkar edilmiş xidməti pozuntulara yol verdiklərinə görə 251 gömrük orqanı əməkdaşı intizam məsuliyyətinə cəlb edilmişdir. Bunlardan 7 nəfər gömrük orqanlarından xaric edilmiş, 8 nəfər tutduğu vəzifədən azad edilmiş, 2 nəfər aşağı vəzifəyə keçirilmiş, 8 nəferin xüsusi rütbəsi bir pillə aşağı salınmış, 39 nəfərə sonuncu xəbərdarlıqla şiddətli töhmət, 125 nəfərə töhmət elan edilmiş, 62 nəfərə irad tutulmuşdur.

Gömrük orqanlarının milli iqtisadiyyatın formalaşması və büdcənin təşkilində vacib qurum olmaqla vətəndaşlarla daim açıq təmasda olmasının zəruriliyini nəzərə alaraq, şəffaflığın təmin edilməsi, bu sahədə hesabatlılığın təmin edilməsi, korrupsiya və digər hüquqpozmaların qarşısının alınmasının mühüm əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq, 08 may 2018-ci il tarixdə imzalanmış "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin arasında korrupsiya ilə mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma

Memorandumu" nda nəzərdə tutulan tədbirlərin icrası davam etdirilmiş və 2019-cu ildə Dövlət Gömrük Komitəsinə daxil olmuş materialların araşdırılması zamanı əməllərində cinayət tərkibi olduğu ehtimal edilən gömrük orqanının 4 əməkdaşı barəsində materiallar hüquqi qiymət verilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilmişdir.

Qeyd edək ki, Dövlət Gömrük Komitəsinin Akademiyasını bitirmiş 21 tələbə işlə təmin edilmiş eyni zamanda, Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi nəzdindəki İqtisadi-Ticarət Müşavirliyinin müraciətinə əsasən 1 nəfər gömrük orqanı əməkdaşı Çin Normal Universitetinə qəbul edilmişdir.

2019-cu il ərzində 4 nəfər gömrük orqanı əməkdaşının əlavə təhsil almaları üçün Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına müraciət olunmuşdur.

Aidiyyəti universitetlərin müraciətləri əsasında 57 tələbənin gömrük orqanlarında istehsalat təcrübəsi keçmələri təmin edilmişdir.

2019-cu il ərzində Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi tərəfindən gömrük əməkdaşlarının sağlamlığının qorunması məqsədilə müvafiq işlər görülmüşdür. Belə ki, hesabat ilində Elmi-Təcrübi və Tədris Mərkəzi tərəfindən gömrük sərhəd buraxılış məntəqələrində gömrük əməkdaşları arasında sərhədi keçən vətəndaşlara düzgün həkiməqədər ilk yardımın göstərilməsi işinin təkmilləşdirilməsi məqsədilə “Qırmızı Körpü” sərhəd buraxılış məntəqəsində nəzəri və praktiki hissələrdən ibarət olan “İlk yardım” təlimləri keçirilmişdir.

03 may 2019-cu il tarixində Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi, Florence Nightingale Hastaneler Qrupu və Türkiyə Cümhuriyyəti Demiroğlu Bilim Universiteti arasında tibb sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə və inkişafına xidmət edəcək üçtərəfli əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Elmi-Təcrübi və Tədris Mərkəzinin nümayəndələrinin də iştirak etdiyi görüşdə qurumların mütəxəssisləri arasında fəaliyyət sahələri üzrə teletibb əlaqələrinin qurulması layihəsi ilə bərabər bir çox əməkdaşlıq sahələri barədə geniş fikir mübadiləsi aparılıb.

07-08 may 2019-cu il tarixlərində Astara rayonunun Kijəbə qəsəbəsində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş xeyriyyə aksiyası keçirilib. “Ürək-damar xəstəliklərinə qarşı mübarizə” layihəsi çərçivəsində 2 gün ərzində həyata keçirilən tibbi müayinələr zamanı 16 nəfərdən ibarət təcrübəli həkim briqadası azyaşlı uşaqlar da daxil olmaqla 500 nəfərə yaxın Astara rayon sakininin müayinəsi həyata keçirilmişdir.

30 may 2019-cu il tarixdə Türkiyənin Florence Nightingale Xəstəxanalar qrupunun mütəxəssisləri “1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü” ilə əlaqədar ürək qüsurları olan uşaqları ödənişsiz müayinə ediblər. Aksiya çərçivəsində 30-dək uşaq tibbi müayinədən keçirilmişdir.

01-03 iyun 2019-cu il tarixlərində Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi tərəfindən “Uşaq ürəkləri Qarabağda döyünür!” şüarı altında Cocuq Mərcanlı qəsəbəsində xeyriyyə aksiyası və Horadiz şəhərində “Uşaq xəstəliklərinin diaqnostika və müalicəsində yeniliklər” mövzusunda Beynəlxalq Pediatrik Elmi konfrans keçirilib. Xeyriyyə aksiyası çərçivəsində təcrübəli həkim briqadası tərəfindən 1 iyun 2019-cu il tarixində Cəbrayıl rayonu, Cocuq Mərcanlı qəsəbəsində 180 nəfər və 2-3 iyun 2019-cu il tarixlərində Füzuli rayonu, Horadiz şəhərində 204 nəfər tibbi müayinələrdən keçirilib. Həmçinin, Tibbi Xidmət

İdarəsi tərəfindən Cocuq Mərcanlıda yerləşən tibb məntəqəsinə kondisioner və bəzi tibbi ləvazimatlar hədiyyə edilib. 2019-cu ildə Mərkəzi Hospitalda üzərində cərrahi əməliyyat aparılmış xəstələrin sayı 3152 nəfər təşkil etmişdir.

## X. DÖVLƏT ORQANLARI VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR ÜZRƏ GÖRÜLMÜŞ İŞLƏR

2019-cu il ərzində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, Azərbaycan Respublikasının Nazirlər Kabinetindən, Milli Məclisindən, hüquq mühafizə orqanlarından, nazirlik və komitələrdən, digər mərkəzi icra hakimiyyəti orqanlarından, xarici ölkələrdən, səfirliklərdən, beynəlxalq təşkilatlardan, hüquqi şəxslərdən, respublikanın gömrük orqanları və təşkilatlarından, həmçinin vətəndaşlardan və əcnəbi vətəndaşlardan 51380 sənəd daxil olmuş və aidiyyəti üzrə 28708 sənəd xaric olmuşdur.

Hesabat dövründə “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1308-IVQ saylı Qanununa uyğun olaraq Dövlət Gömrük Komitəsində vətəndaşların qəbulunun texniki məsələlərinin həlli təmin edilmiş, “Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 saylı Fərmanına uyğun olaraq vətəndaşların DGK-ya müraciətləri əlifba sırası ilə kompüterdə qeydiyyata alınmış, onlarla bağlı qeydiyyat-nəzarət vərəqələri tərtib olunmuş, müraciətlərin icrası xüsusi nəzarətə götürülmüşdür.

Ötən dövrlərdə olduğu kimi 2019-cu il ərzində də gömrük orqanlarının bütün istiqamətlərdə gördüyü işlər - fiskal siyasətin həyata keçirilməsi, hüquq mühafizə orqanı kimi gömrük sahəsində hüquqpozmalara qarşı mübarizə, mədəni sərvətlərin qorunması, informasiya texnologiyalarının tətbiqi, gömrük nəzarətinin təşkili, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin beynəlxalq imicinin möhkəmlənməsi, xidmət səviyyəsinin dünya standartlarına uyğunlaşdırılması və digər fəaliyyət istiqamətləri üzrə həyata keçirilmiş tədbirlər ölkə ictimaiyyətinin diqqətinə çatdırılmış, eləcə də həmin tədbirlərin Komitənin rəsmi internet səhifəsində, Komitənin rəsmi “Facebook”, “İnstagram”, “Twitter”, “Linkedİn”, “Youtube” səhifələrində, "Gömrük xəbərləri" qəzetində və ölkənin digər kütləvi informasiya vasitələrində işıqlandırılması təmin olunmuşdur. Ümumilikdə, qəzet, televiziya və sosial şəbəkələrdə 39047 məlumat yayımlanmışdır.

Hesabat dövründə respublikanın aparıcı media orqanlarında çalışan jurnalistlər üçün “Dövlət Gömrük Komitəsinin Akademiyasına, Kinoloji Mərkəzinə və "Azərterminalkompleks" Birliyinə tanışlıq məqsədli media turlar təşkil edilib. Səfər çərçivəsində həmin qurumların yaranması və fəaliyyəti barədə jurnalistlərə məlumat verilib, onların sualları cavablandırılmışdır.

Dövlət Gömrük Komitəsinin media nümayəndələri üçün "Gömrük islahatları: şəffaf gömrük, asan və sürətli ticarət" mövzusunda keçirdiyi təlim çərçivəsində jurnalistlər Qərb Ərazi Baş Gömrük İdarəsinin "Mazımçay" gömrük postuna səfər edərək ölkə ərazisinə idxal olunan və ixrac edilən malların gömrük qeydiyyatının aparılması və sürətli keçidin təmin olunmasını əyani müşahidə etmişlər. Mövcud tədbirin keçirilməsində əsas məqsədlərdən biri də media nümayəndələrinə 2019-cu ilin fevral ayının 1-dən etibarən

tətbiq olunan "Yaşıl dəhliz" buraxılış sisteminin "Mazımçay" gömrük postunda həyata keçirilməsinin nümayiş etdirilməsi olmuşdur.

Bununla yanaşı, jurnalistlər üçün Şəki şəhərində "Gömrük islahatları: şəffaf gömrük, asan və sürətli ticarət" və Lənkəran şəhərində "Gömrük sistemində aparılan islahatlar: nəticələr, perspektivlər" mövzusunda təlimlər keçirilmişdir. Media nümayəndələrinə gömrük işinin fəlsəfəsi, gömrük nəzarəti metodları və vasitələri, malların gömrük ərazisinə gətirilməsi və bu ərazidən aparılması, ticarətin asanlaşdırılması üzrə gömrük nəzarətində yeniliklər, risk analizləri və risklərin idarə edilməsi, gömrük-biznes əməkdaşlığı, mövcud problemlər və onların aradan qaldırılması yolları, gömrük rüsumları və növləri, gömrük orqanları tərəfindən alınan vergilər, gömrük islahatları və modernləşdirmədə məqsəd və gömrük sahəsində hüquqpozmalara qarşı mübarizə istiqamətində həyata keçirilən tədbirlərlə bağlı təqdimatlar keçirilmişdir.

Hesabat dövründə Dövlət Gömrük Komitəsinin "Facebook" sosial şəbəkəsindəki səhifəsində "Yaşıl Dəhliz" buraxılış sistemi və "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"na dair Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 oktyabr 2013-cü il tarixli 305 saylı qərarı, oktyabr ayında isə avtonəqliyyat vasitələrinin keçirilməsi qaydalarına həsr edilmiş canlı yayım təşkil olunmuş və vətəndaşları bu sahədə maraqlandıran suallar ətraflı cavablandırılmışdır.

Çağrı Mərkəzi sistemində aparılan ümumi islahatlar nəticəsində ötən ilin müvafiq dövrü ilə müqayisədə (13 758 müraciət) daxil olan müraciətlərin sayında 2,8 dəfədən artıq artım müşahidə olunmuş, rəqəm ifadəsi ilə desək ötən ilə nisbətən daxil olan 39 116 artıq müraciət (cari ildə, ümümilikdə 52 874 müraciət) operativ olaraq cavablandırılmış, qaldırılan məsələlər mövcud gömrük qanunvericiliyinin tələblərinə uyğun olaraq çevik şəkildə öz həllini tapmış, gömrük xidmətinin nüfuzunun daha da artırılması və cəmiyyətdə gömrük orqanlarına etimadın daha da möhkəmlənməsi, ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun qarşısında bərabərliyi prinsiplərinə uyğun formada şəxslərin məmnunluğunun təmin olunması istiqamətində tədbirlər görülmüşdür.

## XI. AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN 2019-CU İL 15 MART TARİXİNDƏ MİLLİ MƏCLİSDƏ 2018-Cİ İLDƏKİ FƏALİYYƏTİ HAQQINDA HESABATININ MÜZAKİRƏSİ ZAMANI DEPUTATLAR TƏRƏFİNDƏN GÖMRÜK XİDMƏTİNƏ DAİR VERİLMİŞ TƏKLİFLƏR, TÖVSİYƏLƏR VƏ İRADLARLA BAĞLI GÖRÜLƏN TƏDBİRLƏR

Dövlət Gömrük Komitəsi xidməti fəaliyyətini Azərbaycan Respublikasının normativ-hüquqi aktlarında nəzərdə tutulmuş qaydalara uyğun gömrük tarif tənzimlənməsi baxımından aidiyyəti mərkəzi icra orqanından daxil olan təkliflərə rəylər bildirir. Milli Məclisdə deputat Fərəc Quliyev tərəfindən qaldırılan məsələyə münasibət bildirərək qeyd edək ki, sahibkarlar üçün əlverişli biznes və vergi mühitinin yüksəldilməsi, gömrük-vergi idarəetməsinin keyfiyyətinin daha da artırılması, rəqabət mühitinin yaxşılaşdırılması məqsədi ilə mütəmadi olaraq aidiyyəti tədbirlər həyata keçirilməklə, xidmətdə şəffaflıq təmin edilmiş, idxal mallarına münasibətdə yerli məhsulların istehlak bazarında rəqabətliliyinin qorunması prioritet olaraq diqqətdə saxlanılır.

2019-cu ildə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən xarici ticarət iştirakçılarına daha əlverişli biznes mühitinin yaradılması və ticarətin asanlaşdırılması istiqamətində həyata keçirilmiş islahatların növbəti illərdə də davamlılığı təmin olunacaqdır.

**Dövlət Gömrük**
**Komitəsinin sədri**
**Səfər Mehdiyev**